www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  24 aprel 2019-cu il  Çərşənbə  № 87 (7257)  Qiymәti 60 qəpik

Xəbər

**Qaz və enerji limitinin ləğvi gündəmdə - araşdırma**

yazısı səh.14-də

Gündəm

**Parlamentdə Qarabağ və müharibə müzakirələri**



"Ermənilər müharibə istəmirsə, Azərbaycan torpaqlarını tərk etməlidirlər" çağırışına, spiker "Münaqişəni sülh yolu ilə həll edə biləriksə, nə üçün müharibəyə çağırış etməliyik?!" dedi

yazısı səh.4-də

**Putinin Qərbin sanksiyalarına qarşı "Runet"kası, yoxsa...**

yazısı səh.9-da

**Metropoliten rəhbərliyinə növbəti sərt ittihamlar**

yazısı səh.10-da

**Ölkədə quduz it müzakirələri: heyvansevərlər niyə insanı sevmirlər?**

yazısı səh.12-də

**Ən yüksək maaş alan məmurlar sırasında MSK sədri də var**

yazısı səh.10-da

**Qar uçqununa düşən ikinci hərbi qulluqçumuzun meyiti tapılıb**

yazısı səh.12-də

**Vaşinqtonun hədəfindəki Hizbullah...**

yazısı səh.13-də

**ABŞ sərhədimizdəki "barıt çəlləyi"ni partladır**

yazısı səh.5-də

**AXH müəmması davam edir - barışıq ümidləri...**

yazısı səh.7-də

**Qarabağ danışıqlarında real dönüşü ləngidən səbəb**

yazısı səh.11-də

**Bakının tıxacdan xilas yolu - iki təklif**

yazısı səh.3-də

**Dünya siyasətçilərinin bir-birindən qəribə fobiyaları**

yazısı səh.15-də

# ERMƏNİSTANDA İNQİLABIN İLDÖNÜMÜ: PANİKA VƏ ÇARƏSİZLİK...

Köçəryan-Sərkisyan rejiminin çöküşündən 1 il ötdü; düşmən ölkənin xalqı isə yavaş-yavaş eyforiyadan çıxıb məyusluq zolağına girir; erməni portalından inqilabçı baş nazirə ittihamlar; "Onun "sehirli çubuğu" yox imiş..."



yazısı səh.8-də

# Eldar Mahmudov "düyünü" əmisi oğlunun məhkəməsində açıla bilər

Sabiq nazir köməkçisi olmuş Vüqar Mahmudovun cinayət işi üzrə prosesə çağırılacaq və sorğu-sual ediləcək

yazısı səh.6-da



Örl Litzenberqer

**ABŞ-ın yeni səfiri müxalifətlə niyə görüşmür - versiyalar**

yazısı səh.5-də



*Sülhəddin Əkbər:*

**"Dünya siyasətində yeni yəhudi yüksəlişi müşahidə olunur"**

yazısı səh.9-da



Qüdrət Həsənquliyev

**Deputatdan Qərbin gizli Azərbaycan planı haqda sensasion açıqlamalar**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

# Avropa İttifaqı ilə saziş: XİN Oqtay Əsədovu təkzib etdi

**Milli Məclisin spikeri Oqtay Əsədov Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişinin imzalanacağı tarixi açıqlayıb. Əsədov həmin sazişə "ermənilərin əngəl olmağa çalışdığını" deyib və bildirib ki, sənədin layihəsində Dağlıq Qarabağ Azərbaycanın ərazisi kimi göstərilib.**



"Saziş layihəsində Dağlıq Qarabağ ərazisi Azərbaycanın ərazisi kimi qeyd olunub, biz buna nail olmuşuq. Texniki məsələlər qalıb ki, onlar da həll edilir. Ermənilər bu sazişə əngəl olmağa çalışırlar" - o deyib. Və O.Əsədov bildirib ki, saziş mayın 13-də imzalanacaq.

Lakin spikerin bu bəyanatının üstündən bir neçə saat keçmiş XİN bildirib ki, sazişin həmin tarixdə imzalanması nəzərdə tutulmayıb.

"Çünki ölkəmizlə Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətlərinin hüquqi əsasını təşkil edəcək saziş üzrə danışıqlar hələ ki davam etdirilir" - XİN-in mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib.

Qeyd edək ki, bu günlərdə xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə Avropa İttifaqının xarici siyasət komissarı Federiko Mogerini ilə danışıqlardan sonra bildirib ki, saziş layihəsi üzərində danışıqlar hələ davam edir. Onun sözlərinə görə, sənəd böyük ölçüdə razılaşdırılıb, bəzi razılaşdırılmamış məqamlar qalır və sənədin imzalanması noyabr ayına planlaşdırılır.



## İlham Əliyev Mərdəkan-Qala avtomobil yolunun açılışında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib. Prezident İlham Əliyev sakinlərlə görüşüb.**

Sonra Mərdəkan-Qala avtomobil yolunun tikintisi layihəsi barədə məlumat verilib.

Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

## Prezident II Dünya müharibəsinin iştirakçıları ilə bağlı sərəncam imzaladı

**Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.**

Virtualaz.org-un məlumatına görə, sərəncamda qeyd edilir ki, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1000 (min) manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

## Ziya Məmmədovun qardaşı oğlu DİN-də yüksək vəzifəyə təyin olundu

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu, polis polkovniki Fuad Məmmədli Daxili İşlər Nazirliyinin Səfərbərlik İşləri və Mülki Müdafiə İdarəsinin rəisi vəzifəsinin müvəqqəti icraçısı təyin edilib.**

Virtualaz.org bildirir ki, F.Məmmədli bundan əvvəl müxtəlif vaxtlarda Quba və Salyan RPŞ-nin rəisi, DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəis müavini vəzifələrində çalışıb.

Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

## Bakıda məktəbdən 7500 manatlıq oğurluq edilib

**Suraxanı rayonu Qaraçuxur qəsəbəsində yerləşən məktəblərdən birindən oğurluq edilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, məktəb rəhbərliyi Suraxanı Rayon Polis İdarəsi 32-ci Polis Bölməsinə müraciət edərək informatika otağından 7500 manat dəyərində kompüter avadanlığının oğurlandığını bildirib.

Bölmə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş Hüseyn Məmmədov saxlanılıb. O, ifadəsində oğurluq etdiyini etiraf edib.

Faktla bağlı bölmədə toplanan materiallar Suraxanı RPİ-nin İstintaq Şöbəsinə göndərilib. H.Məmmədov barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb və onun barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

## Moskva-İrəvan təyyarəsində erməni qadın öldü

**Moskva-İrəvan reysini həyata keçirən "Nordwind Airlines" aviaşirkətinə məxsus təyyarədə ölüm hadisəsi baş verib.**

REN TV-nin yaydığı məlumata görə, uçuş zamanı Ermənistan vətəndaşının vəziyyəti pisləşib və o ölüb.

Bu səbəbdən təyyarə Rostov-na-Don şəhərində yerləşən "Platov" Hava Limanında təcili eniş etməli olub.

Göyərtədə 176 sərnişin və 6 ekipaj üzvü olub.



Andre Vilye

## "Sarı jiletlilər" Azərbaycandakına bənzər islahatlar tələb edirlər

**"Azərbaycan prezidenti İlham Əliyevin bu il martın 16-da imzaladığı əfv sərəncamını yüksək qiymətləndirirəm". Bunu "Report"a Fransa Milli Assambleyasının deputatı, Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Andre Vilye deyib.**

Onun sözlərinə görə, bu qərar ölkədəki müxtəlif qrupları bir-birinə yaxınlaşdırmaq, həmçinin stabilliyə, sabitliyə aparan yolda mühüm addımdır: "Prezident İlham Əliyevin bu qərarı tarixə yeni səhifə açmaqla bərabər gələcəyin bünövrəsini möhkəmləndirməyə xidmət edəcək".

**Fransalı deputat Azərbaycan Prezidentinin sosial müavinətlərin artırılmasına dair sərəncamına da toxunub:** "Prezident İlham Əliyevin sosial müavinətlərin artırılması ilə bağlı sərəncamları əhalinin alıcılıq qabiliyyətinin artırılması üçün böyük əhəmiyyət daşıyır. Hazırda Fransada davam edən "Sarı jiletlilər" hərəkatının üzvlərinin də öz dövlət başçılarından tələbi bu yöndədir. Bu qərar Azərbaycan əhalisinin yaşayış səviyyəsini yaxşılaşdırmağa xidmət edir".

**A.Vilye Azərbaycanın imicinin dünya miqyasında artdığını, Prezident İlham Əliyevin bu sahədə apardığı uğurlu siyasətin öz bəhrəsini verdiyini də vurğulayıb:** "Beynəlxalq aləmdə, dünyada Azərbaycanı tanımağa başlayıblar. İdman eyni zamanda kommunikasiya daşıyıcısıdır. Azərbaycan son illər idman sahəsində müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi edib, bir sıra idman növləri üzrə güclü komandalara malikdir. Azərbaycan idmançılarının səsi müxtəlif yerlərdən gəlir. Azərbaycanın, azərbaycanlıların xoş soraqlarını tez-tez eşitməyə başlamışıq. Təbii ki, bütün bunlar uğurlu siyasətin nəticələridir".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Lökbatan, Bibiheybət və Bayıla müvəqqəti marşrut xətti açıldı

**Bakı Nəqliyyat Agentliyi (BNA) və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin həyata keçirdiyi birgə operativ tədbirlər nəticəsində paytaxtın cənub istiqamətində, o cümlədən Lökbatan, Bibiheybət, Bayıl və 20-ci sahə adlanan ərazilərdə yaşayan sakinlərin ictimai nəqliyyatdan istifadəsindəki çətinliklər aradan qaldırılıb.**

BNA-dan virtualaz.org-a verilən məlumata görə, ilk növbədə Lökbatan-Funikulyor Bəhram Gur heykəli istiqamətində 5A adı altında müvəqqəti müntəzəm marşrut xətti təşkil edilib.

Bununla yanaşı, 5A xətti üzrə avtobusların maneəsiz hərəkəti üçün Mikayıl Useynov prospektində nəqliyyat vasitələrinin hərəkətinə tətbiq edilən məhdudiyyət qismən aradan qaldırılıb.

Qeyd edilən hissədə hərəkət yalnız müntəzəm marşrut xətti üzrə hərəkət edən avtobuslar üçün açılıb.

Məlumat üçün bildiririk ki, yeni təşkil edilən 5A müntəzəm marşrut xətti üzrə gediş haqqı 30 qəpik müəyyən edilib. Bu marşrut xətti üzrə avtobuslar yollarda məhdudiyyət tam aradan qaldırılanadək sərnişinlərə xidmət göstərəcək.

## Bakıda tutulub aparılan eks gömrük rəhbərini azadlığa buraxıblar

**Korrupsiyada ittiham olunan və bu yaxınlarda Azərbaycandan ekstradisiya edilmiş Qırğızıstan Gömrük Xidmətinin keçmiş rəhbəri Adamkul Junusov azadlığa buraxılıb.**

Virtualaz.org "Fabula press"ə istinadən xəbər verir ki, aprelin 5-də onun barəsində başlanmış cinayət işi məhkəməyə göndərilib. İstintaq müddətində Junusov fevralın 4-nə qədər təcridxanada saxlanılıb. Sonradan onun həbs müddəti aprelin 4-nə qədər uzadılıb. Lakin sonrakı qərar barədə məlumat yoxdur.

Qırğızıstanın hüquq-mühafizə orqanlarındakı mənbənin sözlərinə görə, Adamkul Junusov barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 24-nə təxirə salınıb və buna səbəb təqsirləndirilən şəxsin səhhətindəki problemlərdir. Hazırda Junusovun harada olması məlum deyil.

Junusov ötən ilin dekabr ayında Bakıda - Heydər Əliyev adına hava limanında Nyu-Yorkdan Bakıya səfər etdikdən sonra saxlanılıb. Sonradan o, Qırğızıstana ekstradisiya olunub.

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

**Bir neçə gündür Bakının mərkəzi küçə və prospektlərində tıxac yaranır. Xüsusən də səhər saatlarından etibarən paytaxtın Moskva, Tiflis, Mətbuat prospektlərində, 28 May, Vağzalyanı, Rəşid Behbudov küçələrində tıxaclar müşahidə olunur. Səbəb odur ki, Bakıda növbəti "Formula 1" Azərbaycan Qran Prisinin keçirilməsi ilə əlaqədar görülən tədbirlərlə bağlı dünəndən etibarən paytaxtda Bakı Şəhər Halqası üzrə avtomobil yollarında hərəkət məhdudlaşdırılıb. Digər yollarda yük artdığından sıxlıq müşahidə olunur.**

# Bakının tıxacdan xilas yolu - iki təklif

## Ərşad Hüseynov: "Xəzərin üstü ilə asma körpü tikməyə sərf olunan pulla Bakı Metropoliteninin 20 stansiyasını tikmək olar"



Ümumilikdə isə Bakıda yolların yükünün hədsiz çox olması, alternativlərin azlığı, bəzi hissələrdə, ümumiyyətlə, olmaması uzun müddətdir müzakirə olunur. Bunun üçün yeni nəqliyyat növü kimi, tramvay və trolleybusların bərpasından tutmuş, Bakıda Xəzərin üzərindən keçməklə Şıxovla Zığı birləşdirən asma körpünün tikilməsinə qədər bir çox variant müzakirə olunub. Problemin həlli istiqamətdə zaman-zaman müəyyən işlər görülsə də, qeyd olunan iki meqalayihə həyata keçirilməyib. Xüsusən asma körpü məsələsi 2010-cu illərdə müzakirə edilib, hətta layihə və smeta da hazırlanıb. Lakin bəlli olmayan səbəblərdən arxivdə qalıb. 2010-cu ildə mətbuat yazırdı ki, bir neçə il sonra dənizin ortası ilə Şıxovdan Zığ qəsəbəsinə qədər uzanacaq körpü təkcə şəhərimizə xüsusi gözəllik verməyəcək, həm də şəhərə daxil olan avtomobillərin vaxt və yanacaq itkisi etmədən mənzil başına çatmalarına kömək olacaq: "Körpüdə iki istiqamətli 4 hərəkət zolağı olacaq, uzunluğu 26,5 km nəzərdə tutulur. Koreyalıların görəcəyi bu işlər Bakının mərkəzi rayonunun müfəssəl planının tərkib hissəsi kimi həyata keçiriləcək. Qərb və cənub tərəfdən gələn nəqliyyat vasitələri inşa ediləcək körpü vasitəsilə Abşeron yarımadasının digər nöqtəsinə qədər hərəkət edə biləcək. Hazırda avtomobillər bunun üçün şəhərin içi ilə və ya dairəvi yollarla hərəkət edir ki, bu da yetərincə vaxt və yanacaq itkisi deməkdir".

Üzərindən 9 il keçib, Bakıda əhalinin sayı daha da artıb, tıxac problemi daha da güclənib, sözügedən vaxt itkisi hər bir Bakı sakininin ömründən gedir. Lakin bu məsələ gündəmə belə gəlmir.

Bəs görəsən, indiki durumda bu layihənin gündəmə gəlməsi mümkündürmü və effektiv sayılırmı? Ekspertlər Bakı yollarının yükünü azaltmaq üçün hansı alternativ nəqliyyat vasitəsini effektiv hesab edirlər?

**Nəqliyyat eksperti Ərşad Hüseynov məsələ ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, həmin layihə külli miqdarda vəsait tələb edir, bu məbləğ hətta Azərbaycanın illik büdcəsi ilə müqayisə olunacaq həddədir:** "Buna görə də belə böyük bir layihənin çəkilməsinə ehtiyac yoxdur. Dəniz üzərindən belə körpüləri adətən adalarda edirlər, bir adadan başqa adaya körpü çəkilir. Azərbaycanda da belə ada yoxdur. Bakı buxtasının o tərəfi ilə bu tərəfini birləşdirmək üçün bu qədər pul xərcləməyə də ehtiyac yoxdur. Xəzər dənizi üzərindən körpü tiksək belə, o, bir neçə ildən sonra istismar müddətini başa vurmağa başlayacaq. O körpünü saxlamaq onu tikməkdən də baha başa gəlir. Ona görə də asma körpüyə ehtiyac yoxdur".

**Ekspertin fikrincə, həmin pulla şəhərin daxili infrastrukturunda daha yaxşı işlər görmək olar:** "Burada təkcə yoldan söhbət getmir, məskunlaşma məsələlərini də həll etmək olar. Təhlil etmək lazımdır ki, insanlar Hövsandan mərkəzə nə üçün gəlir, nəticənin biri belə ola bilər ki, orada yaxşı məktəb yoxdur. Həmin pulun bir hissəsi ilə orada iki yaxşı məktəb tikmək olar və insanlar məktəb üçün mərkəzə gəlməz. Bu kimi məsələləri həll etmək lazımdır. Bakı buxtasının üzərindən keçən körpü olsa belə, şəhərin daxilindəki yükü fantastik dərəcədə azaltmayacaq. Ona görə də maddi yükünün ağır olması və perspektivin qaranlıq olması baxımından belə bir layihəyə ehtiyac yoxdur".

**Su nəqliyyatının olmasına gəlincə, Ə.Hüseynov bildirdi ki, Bakı buxtasından bərə ilə hərəkətin olması vaxt baxımından sərfəli deyil, ancaq şəhəriçi daşımalarda sürətli, kiçik tutumlu sərnişin gəmiləri sərfəli ola bilər:** "Bibiheybət, Bayraq Meydanı ərazisindən Hövsana, Zığa bir marşrut açmaq olar. O da bahalı bir şeydir, gəmilər üçün yanalma infrastrukturu yaradılmalıdır. Orada sərnişinlər sahilə çıxıb şəhəriçi avtobuslara minməlidirlər".

**Tramvay və trolleybus xətlərinin çəkilməsinə gəlincə, ekspert bildirdi ki, belə yollar olsaydı, elə ictimai nəqliyyat bu yollarla maneəsiz hərəkət edərdi:** "Bu da çıxış yolu deyil. Əsas çıxış yolu metro şəbəkəsini genişləndirməkdir. Bakı buxtasının üzərindən körpü tikməyə sərf olunan pulla Bakı Metropoliteninin 20 stansiyasını tikmək olar. Hövsana da, Xırdalana da, Sumqayıta da metro çəkmək olar. Pulu oraya xərcləmək lazımdır, metro şəbəkəsini genişləndirmək lazımdır. İctimai nəqliyyatı inkişaf etdirmək lazımdır ki, ictimai nəqliyyata üstünlük versinlər, fərdi nəqliyyat vasitəsinə qaçmasınlar. Daha sonra şəhərin planlaşma işlərində bunu nəzərə almaq lazımdır. Şəhərin elə yerləri var ki, hərəkət onsuz da çox çətindir, bu gün də zəbt olunmaqda davam edir. Hündürmərtəbəli binaların yol kənarında tikilməsinin də qarşısı alınmalıdır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Düşmənin dilini nə üçün öyrənmək lazımdır?

## Ekspert: "Elə etməliyik ki, Azərbaycan dili Qafqazda ən işlək dilə çevrilsin"

**Prezident İlham Əliyevin 2019-cu il 6 fevral tarixli fərmanı ilə yaradılan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev AzərTAc Dövlət Agentliyinə müsahibəsində mərkəzin fəaliyyəti barədə geniş məlumatlar verib. O bildirib ki, mərkəzin nəzdində ermənişünaslıq tədqiqat mərkəzi açmağı da düşünürlər:**

"Ermənistanı hərtərəfli öyrənməliyik, onun siyasətini, iqtisadiyyatını, tarixini, ədəbiyyatını bilməliyik. Biz düşünürük, həmçinin burada erməni dili kursu açaq. Hesab edirəm ki, Azərbaycanda erməni dilini bilən mütəxəssislər azdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir sıra araşdırmalar aparılır. Məqsədimiz münaqişə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə, xüsusilə də beynəlxalq mütəxəssislərə çatdırmaq, onlarla sıx əməkdaşlıq etməkdir. Bunun müxtəlif formaları var - seminarların, konfransların təşkili, mütəxəssislərin fikir mübadiləsi və sair. Yeni mexanizmlər mövcuddur. Artıq bu istiqamətdə müəyyən işlər aparılır. Biz bu işləri yeni səviyyədə, mütəşəkkil şəkildə aparacağıq".

Düşmənin dilini öyrənməklə bağlı fikirlər müxtəlifdir. Kimisi bu dilin öyrənilməli olduğunu söyləsə də, əks arqumentlər gətirənlər də var. Ümumilikdə görünən budur ki, Azərbaycanda erməni dilini bilən barmaqla sayılacaq qədər adam var. Məlumatlara görə, hələ Dağlıq Qarabağ münaqişəsi baş verməmişdən öncə də ermənilər Azərbaycan dilini öyrənsələr də, sərhədyanı zonalarda belə erməni dilini bilən çox az sayda azərbaycanlı olub. Həmin azərbaycanlılar da bu dili məhdud formada öyrəniblər.

Bəs düşmənin dilini öyrənmək lazımdırmı? Lazımdırsa, nə üçün?




**"Yeni Müsavat"a danışan Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu bildirib ki, müstəqillik dövründə ölkədə ilk dəfə erməni mətbuatından Azərbaycan dilinə tərcümə işləri onun mərkəzi tərəfindən həyata keçirilib:**

"İndi də tərcüməçilərimiz müxtəlif yerlərdə fəaliyyət göstərirlər. O dövrdə dövlət rəsmiləri tərəfindən dəstək də almışam. Deyim ki, həmin zamanlarda erməni saytlarında daxil olmaq üçün Milli Təhlükəsizlik Nazirliyinin icazəsi də lazım idi. Hazırda erməni mətbuatında elə bir şey yoxdur ki, ondan bizim xəbərimiz olmasın. Lazım gəldiyində Müdafiə Nazirliyi tərəfindən erməni dilini bilən bir neçə nəfəri cəbhəyə yaxın ərazilərdə saxlamaq da olar. Hazırda proqramlar var ki, materialları tərcüməçidən daha sürətlə bizim dilə çevirə bilir. Ancaq digər kontekstdən yanaşdıqda Azərbaycanda erməni dilinin öyrədilməsinin əleyhinəyəm. Puşkin və Lermentovun məşhur fikirləri var ki, fransız dili Avropada nə qədər məşhurdursa, Azərbaycan dili də Qafqazda bir o qədər işləkdir. Vəziyyəti bilən adamlarımızın mətbuata çıxışı azdır və onlar çox şeyi demirlər. Son dövrlərdə Gürcüstanda, Ermənistanın özündə bizim dilimizə xeyli maraq artıb. Bunu araşdırmalar zamanı açıq şəkildə görmək olur. Biz elə etməliyik ki, Azərbaycan dili Qafqazda ən işlək dilə çevrilsin. Azərbaycanın ticarət əlaqələri, bəzi ölkələrlə olan bazar sistemi və digər bu kimi hallar imkan verir ki, Azərbaycan dilini regional miqyasda inkişaf etdirək. Erməni dilini öyrənməklə buna bir qədər maneə yaradacağıq. Azərbaycan musiqisinə baxmaq lazımdır. Söhbət təkcə muğamatdan, simfoniyadan getmir, eləcə də aşıq havalarından danışmaq olar. İranda nə qədər çalışırlarsa, bunun qarşısını ala bilmirlər. Türkiyədə də bu musiqilər geniş şəkildə yayılır. Azərbaycan dili çox axıcıdır və regional yayılmasında heç bir problem yoxdur. İngilis, rus, fransız dillərinin öyrədilməsində nöqsan yoxdur. Beynəlxalq dilləri bilməyimizdə ancaq fayda var. Lakin regionda Azərbaycan dilinin yayılması üçün də çalışmaq lazımdır".

**Politoloq söyləyib ki, erməni dilini öyrənmək asan deyil, çünki bu dil çox qəlizdir:** "Ermənilərin "AZQ" qəzeti vardı, 20 il öncə bu informasiya daşıyıcısı olduqca məşhur idi. Həmin qəzet hər gün 16-18 ədəd erməni dilində məlumat yerləşdirirdi. Onun 12-sini ingilis və rus dilinə çevirirdilər. Təxminən 5-6 il sonra qəzetə türk dilini də əlavə etdilər. O dövrdə mütəxəssislər vardı ki, bu məqalələri bizim dilə çevirirdilər. Erməni dili kifayət qədər qəlizdir. Ermənistanın özündə danışan erməninin dili ilə Türkiyədəki erməninin dili fərqlidir. Qarabağ ermənilərinin dilində fars, türk sözləri çoxdur. Ona görə də Ermənistan erməniləri Qarabağ ermənilərini qəbul etmir. Onlara deyirlər ki, siz farslaşıb, türkləşmisiz. Azərbaycanda xalis erməni dilini bilən 4-5 adam var. Onlar da vaxtilə Ermənistanda çıxan "Sovet Ermənistanı" qəzetinin ətrafında olanlardır ki, köçüb gəliblər. Ədəbi erməni dilini bilən bunlardır. Cavanlardan isə 2-3 tərcüməçi mənim xoşuma gəlib. Bir zamanlar erməni dilini bilən mütəxəssis axtaran zaman cavanlarla da işləmişəm. Onlardan yalnız 2-3 nəfərinin dili normal bildiyini söyləmək olar. Sadə sözləri bilən isə 100-ə yaxın adam tapmaq olar. Qərbi və şərqi erməni dili fərqlidir. Bunların bağlantılarını da bilmək lazımdır. Məhz buna görə də məsələ ilə bağlı bir çox layihələr yarımçıq qalıb".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Parlamentdə Qarabağ və müharibə müzakirələri

## “Ermənilər müharibə istəmirsə, Azərbaycan torpaqlarını tərk etməlidirlər” çağırışına spiker “Münaqişəni sülh yolu ilə həll edə biləriksə, nə üçün müharibəyə çağırış etməliyik?!” dedi...

**Aprelin 23-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. Gündəliyin təsdiqindən sonra çıxış edən deputat Azay Quliyev BMT-də Azərbaycana qarşı təxribata əl atılmasından danışdı.**



A.Quliyev bildirdi ki, BMT-nin üzvü olan hər bir ölkə bu quruma illik hesabat təqdim edir. “Təəssüflər olsun ki, bu dəfə Azərbaycana qarşı təxribata yol verilib. Belə ki, Ermənistan təqdim etdiyi hesabatda qondarma ”dqr"-in hesabatını da əlavə edib. Bununla da BMT-nin İnsan Haqları Şurası öz nizamnaməsindən kənara çıxıb. Bu hesabat 6 dildə yayılıb. Bizim qurumlar məsələyə münasibətini bildirməlidir. Ermənistan indiyədək dəfələrlə Azərbaycana qarşı təxribatlara yol verib. Ancaq Ermənistanın budəfəki təxribatına BMT şərait yaradıb. Özü də “artsax” adı ilə təqdim olunub". **A.Quliyev məsələyə ciddi reaksiya verilməsini zəruri saydı:** “Bizim BMT-dəki səlahiyyətli nümayəndəmiz məsələyə müdaxilə etməli və həmin qondarma, qanunsuz hesabat BMT-nin saytından çıxarılmalıdır”.

**Deputat Fazil Mustafa ölkədə elektrik enerjisi və qaz sərfiyyatı ilə bağlı tətbiq olunan limitlə bağlı məsələ qaldırdı.** “Burada limitin 1700 kubmetrdən 2 dəfə qaldırılaraq 3.400 kubmetr olması yoxsul əhalinin problemlərini nisbətən azaltmağa imkan verərdi. Tamamilə ləğv olunması tələbləri də var, ancaq mən real variant üzərində dayanıram. Hamının imkanları eyni olmadığı üçün biz birinci növbədə ödəniş qabiliyyəti olmayan yoxsul və orta təbəqənin maraqlarını nəzərə almalıyıq. Havanın temperaturu elədir ki, aprel ayında belə vətəndaşlar qış rejimi ilə qazı istehlak edirlər. Ancaq o qədər ödəniş tələb olunur ki, bir çox hallarda qazdan istifadədən imtina edirlər. Bu xalqımızın sərvətidirsə, ilk öncə bu sərvətin faydasını da vətəndaşlarımız görməlidir” - F.Mustafa bildirdi.

**Deputat Tahir Kərimli də limitin artırılması barədə həmkarının təklifini müdafiə etdi. Eyni zamanda şair Musa Yaqubu ziyarət etdiyini deyən T.Kərimli əlavə etdi ki, Heydər Əliyev Fondu şairin müalicəsi ilə bağlı ciddi işlər görür.** “Mayın 10-da Musa müəllimin ad günüdür və bu münasibətlə ona xalq şairi adı verilsə, bu qərar şairin özündən çox, onu sevənlərin ürəyincə olar”.

**Bundan sonra T.Kərimli Azərbaycanla Ermənistan arasında gedən danışıqlardan bəhs edərkən narahatlığını ifadə etdi. O, son görüşlərdə xalqlar arasında sülhün yaradılması, jurnalistlərin qarşılıqlı səfərlərinin təşkili ilə bağlı razılaşmaya toxundu:** “Mən bu məsələni başa düşə bilmirəm. Bəzən arqument gətirirlər ki, faşist Almaniyası ilə SSRİ bir-biri ilə barışdı. Məsələ ondadır ki, faşizmi aparıb öz yuvasına kimi qovladılar. Ona təslim aktı imzalatdırdılar, ondan sonra sülh danışıqları oldu. Bu qədər insanlarımız şəhid olub, yaralıdır, qırılıb-batıb. Belə olan təqdirdə hansı sülh danışıqlarına getmək olar?! Azay müəllim də dedi, artıq bütün beynəlxalq təşkilatlarda erməni tərəfi hücuma keçib. Ona görə də xalqları sülhə hazırlamaq nə deməkdir, təslimçiliyə hazırlamaq deməkdirmi, mən başa düşə bilmirəm. Biz öz rəhbərimizə, öz hökumətimizə inanmışıq. Biz inanmışıq ki, Azərbaycan heç vaxt öz torpaqlarını güzəştə getməyəcək, suverenliyimizdən heç vaxt kənara çıxılmayacaq, ərazi bütövlüyümüz bərpa olunacaq. Ermənistan rəhbərliyi deyir ki, bacarırsınız, gəlin, torpaqlarınızı alın, bir qarış da torpaq verməyəcəyik, siz qorxaqsınız. Onlar bizi təhqir edirlər. Əgər onların içərisində bir faiz sülhə meylli deyilsə, hansı sülhdən danışmaq olar?” **T.Kərimli dedi ki, bu konsepsiyanı dəyişmək lazımdır:** “Birmənalı şəkildə ərazi bütövlüyu sözünü işlətmək lazım deyil. Elə birbaşa demək lazımdır ki, Azərbaycan unitar dövlətdir, Dağlıq Qarabağ da onun tərkib hissəsidir”.

**Deputat Qənirə Paşayeva** da əhaliyə verilən təbii qaz limitinin artırılması təklifi ilə çıxış etdi. Millət vəkili bildirdi ki, özəlliklə kəndlərdə, bölgələrdə sakinlərlə görüşlərdə maddi imkanları aşağı olan insanlar etdikləri müraciətlərində təbii qaz limitinin artırılması xahişini edirlər. Q.Paşayeva əhalinin aztəminatlı, maddi imkanları aşağı olan hissəsinin təkliflərini nəzərə alaraq əhaliyə verilən təbii qaz limitinin artırılması məsələsinə yaxın zamanlarda baxılmasının çox vacib olduğunu dedi və müvafiq qurumları bu məsələni diqqətdə saxlamağa çağırdı.

Q.Paşayeva əlavə etdi ki, Ermənistanın BMT-də törətdiyi bu təxribata BMT-nin imkan verməsi ciddi narahatlıq yaradır. Qeyd etdi ki, bu, BMT-nin özünün qəbul etdiyi qətnamələrə zidd addımdır.

**Deputat daha sonra türk dünyasının böyük aydınlarından olan Əhməd bəy Ağaoğlunun abidəsinin ucaldılması və onun haqqında filmin çəkilməsi təklifi ilə çıxış etdi. Q.Paşayeva Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayan prezidentə təşəkkür etdi. Bildirdi ki, Əhməd bəy Ağaoğlu Azərbaycanın yetişdirdiyi böyük şəxsiyyətlərdən biri, erməni daşnaklarının XX əsrin əvvəllərində dinc azərbaycanlılara qarşı törətdiyi qətliamlara, cinayətlərə qarşı mübarizədə “Difai” təşkilatının qurulmasında böyük rol oynayan ictimai xadimdir:** “Ziyalılarımız adından müvafiq qurumlara müraciət edərək xahiş etmək istərdim ki, Əhməd bəy Ağaoğlunun əslən Şuşadan, Qarabağdan olduğunu nəzərə alaraq Qarabağ bölgələrinin birində Əhməd bəy Ağaoğlunun heykəlinin, abidəsinin ucaldılması çox yaxşı olardı. Eyni zamanda onun haqqında filmin çəkilməsi də çox vacib məsələdir. Xalq şairimiz Sabir Rüstəmxanlı Əhməd bəy Ağaoğlunun həyatından bəhs edən "Difai fədailəri" adlı əsər yazıb və bu əsər əsasında filmin çəkilməsi çox yaxşı olardı".

**Deputat Fərəc Quliyev isə dedi ki, ermənilərlə bu cür yumşaq şəkildə davranmaq olmaz:** “Ermənilər müharibə istəmirsə, Azərbaycan torpaqlarını tərk etməlidirlər. Azərbaycan prezidenti də dəfələrlə bəyan edib ki, erməni əsgəri ölmək istəmirsə, Azərbaycan ərazilərini tərk etməlidir”.

**Spiker Oqtay Əsədov isə dedi ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün bütün tədbirləri görür:** “Amma biz dünyada tək deyilik”. Sədr qeyd etdi ki, biz Dağlıq Qarabağda yaşayanların Azərbaycan vətəndaşı olduğunu bildiririk: “Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ciddi işlər görürük. Münaqişə ilə bağlı müzakirədə müharibəyə çağırsaq, nə əldə edə biləcəyik? Münaqişəni sülh yolu ilə həll edə biləriksə, nə üçün müharibəyə çağırış etməliyik?! Biz Dağlıq Qarabağda yaşayanlara deyirik ki, Azərbaycan vətəndaşlarıdır, biz dünyaya bu çağırışı edirik. Azərbaycanın şərtlərinin yerinə yetirilməsi sülh yolu ilə mümkün ola bilərsə, nə üçün buna qarşı çıxmalıyıq?! Ermənistanın bir ağılsız naziri çıxış edir ki, Azərbaycandan torpaq almalıyıq. Onlar başa düşürlər ki, bununla nəyəsə nail ola bilməyəcəklər, boş söhbətlərdir, bizi qızışdırmaq istəyirlər”.

**Komitə sədri Siyavuş Novruzov** isə dedi ki, Azərbaycan prezidenti bütün görüşlərdə Azərbaycanın ərazi bütövlüyünün müzakirə predmeti olmadığını bəyan edib və bu mövqe bütün sənədlərdə əksini tapıb.

**Vitse-spiker Valeh Ələsgərov da emosional çıxışlara ehtiyac olmadığını vurğuladı:** “Heç kim bu ölkədə ərazi bütövlüyümüzü bərpa etmədən sülh danışıqlarına gedən deyil və getməyəcək. Amma real siyasət var. Hər zaman demişik ki, sülh danışıqları ola bilər, amma ölkəmizin ərazi bütövlüyü bərpa edilsin. Problemin həllində öz maraqları olan qüvvələr var. Real siyasətdən xəbərdar olan adam hər bir sözünə dəyər verməli, diqqət etməlidir”. Vitse-spiker əlavə etdi ki, Dağlıq Qarabağ probleminin həllində maraqlı olmayan qüvvələr var: “Emosional çıxışlarla, çağırışlarla insanları qıcıqlandırmaq olmaz. Siyasətdən xəbəri olan insan hər bir sözünə dəyər verməlidir”.

**İclasda Avropa İttifaqı ilə Azərbaycan arasında gözlənilən sazişdən də bəhs olundu.**

**Spiker bildirdi ki, Avropa İttifaqı ilə imzalanması nəzərdə tutulan saziş bizim üçün çox vacib sazişdir:** “Bu sazişlə bağlı uzun müddət idi işlər gedirdi. Əsas məqsədlərdən biri bu idi ki, o sazişdə digər dövlətlər kimi, Azərbaycanın da ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı öz əksini tapsın. Biz artıq buna nail olmuşuq”.

**O.Əsədov bildirdi ki, həllini tapmayan xırda məsələlər qalıb, onların da üzərində iş gedir:** “Bu sazişin imzalanmamasına bir nömrəli maneçilik törədən ermənilərdir”. O.Əsədov əlavə etdi ki, Ermənistanın müdafiə nazirinin çıxışı, hədə-qorxu gəlmələri bu sazişin imzalanmasının qarşısını almağa hesablanmış təxribatçı hərəkətlərdir.

İclasda İctimai Televiziya və Radio Yayımları Şirkəti (İTV) Yayım Şurasının üzvlüyünə namizədliyi irəli sürülən şəxslərin seçilməsi məsələsi müzakirə olundu. Müzakirələr zamanı İTV-nin Yayım Şurasına Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Yusif Babanlının, Azərbaycan Qalaqapı Federasiyasının vitse-prezidenti Orxan Muxtarovun, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayevin, Azərbaycan Bəstəkarlar İttifaqın katibi Zemfira Qafarova və İttifaqın baş məsləhətçisi Cəmilə Həsənovanın namizədliyi irəli sürüldü. Qeyd olundu ki, idman federasiyaları, dini konfessiyalar və yaradıcı təşkilatlar tərəfindən irəli sürülmüş namizədlər arasından hər təşkilatdan 1 nəfər olmaqla, Milli Məclis tərəfindən 6 il müddətinə təsdiq edilməlidir.

Deputatlar Rəfael Hüseynov, Siyavuş Novruzov, Hikmət Məmmədov, İlham Əliyev və digərləri çıxış edərək fikir və təkliflərini bildirdilər.

**Deputat Aqil Abbas İTV-nin keçmiş rəhbərliyinin xidmətlərindən bəhs etdi:** “İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurası yarananda şirkətə İsmayıl Ömərov rəhbərlik edib. O, burada çox yaxşı ənənə qoyub, sıfırdan televiziya yaratdı. İndiki rəhbərlik də bir qədər gücləndirib, öz baxışını tətbiq edib. Bizdə ənənə var, kimsə 15 il işləyir, həmin vəzifəyə başqası təyin olunan kimi deyirlər, köhnə problemlər həll ediləcək. Direktor Balaş Qasımov da yeni seçilib, işini yaxşı görür, amma əvvəlkiləri də unutmaq olmaz”. A.Abbas qeyd etdi ki, İTV birdən-birə inqilab etməyib: “Bunun əsasını qoyan insanın da haqqını yeməmək lazımdır. Biz özəl telekanallara bir söz deyə bilmərik, çünki büdcədən maliyyələşmir. Özəl kanallar reytinq arxasınca qaçmağa məcburdurlar ki, reklam ala bilsinlər. Reklam bazarı da sıfır vəziyyətdədir. Yalnız şadlıq evləri və dərman preparatları reklam olunur. Dünyada artıq dərmanın reklamı qadağan olunur. Özəl kanalları qınayanlardan biri də mənəm, amma onların üstünə çox getməyə ehtiyac görmürəm. İTV isə əvvəldən xalqın televiziyası olub, belə də davam edir”.

Səsvermə nəticəsində İTV-nin Yayım Şurasına idman federasiyalarından Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Yusif Babanlı, dini konfessiyalardan Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin birinci müavini Salman Musayev, yaradıcılıq təşkilatları tərəfindən Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) katibi Zemfira Qafarova seçildilər.

Komitə sədri İsa Həbibbəyli dedi ki, bir müddət öncə məktəblərin birində baş vermiş hadisə məktəbəqədər təhsil müəssisələrində də psixoloji xidmətə zərurət yaradıb. Bildirdi ki, bu mənada məktəbəqədər təhsil müəssisələrində də psixoloji xidmətin təşkili təlim-tərbiyə məsələlərində öz töhfəsini verə bilər. Qanunvericiliyə təklif olunan düzəliş qəbul olundu.

Azərbaycanda “Standartlaşdırma haqqında” qanun layihəsi yenidən Milli Məclisdə müzakirəyə çıxarıldı və ikinci oxunuşda qəbul olundu.

**❑ Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

# ABŞ-ın yeni səfiri müxalifətlə niyə görüşmür - versiyalar

## Siyasi ekspert ənənənin pozulmasının mümkün səbəblərindən danışdı

**ABŞ-ın Azərbaycandakı yeni səfiri Örl Litzenberqer martın 7-dən Bakıda fəaliyyətə başladıqdan indiyə qədər prezident İlham Əliyev və hakimiyyətin müxtəlif qollarının təmsilçiləri ilə görüşlər keçirib. Görüşlər hələ də davam edir. Səfir artıq hətta AZAL prezidenti, univeristet rektorları ilə belə görüşür. Lakin müxalifət partiyalarının sədrləri ilə görüşməyib.**

Əvvəllər ABŞ səfirləri fəaliyyətə başladıqdan az sonra müxalifət liderləri ilə görüşürdü. Bu dəfə belə bir görüşün olmaması maraq doğurur. Görəsən, müxalifət düşərgəsindəki xoşagəlməz durumun ABŞ səfirinin mövqeyinə təsiri mümkünmü? Eyni zamanda hazırda ABŞ-Azərbaycan münasibətlərinin normal olmasının, Vaşinqtonun bu münasibətləri korlamaq istəməməsinin səfirin müxalifətlə görüşməməsində təsiri ola bilərmi?



**Politoloq Nəzakət Məmmədova "Yeni Müsavat"a bildirdi ki, ABŞ səfirinin proqramında müxalifət liderləri ilə görüşə yer verilməməsi müxtəlif səbəblərlə bağlı ola bilər:** "Əsas səbəblər onunla əlaqədar ola bilər ki, hazırda müxalifət düşərgəsində çalxalanma, siyasi partiyalar və onların liderləri arasında nüfuz savaşı, keçmişə görə ədavət, qarşılıqlı ittihamlar, haqq-hesab çürütmə prosesi xeyli güclənib. Eyni zamanda parlament seçkilərində mandat uğrunda mübarizə ittihamı ilə bəzi siyasi qüvvələr arasında arasıkəsilməz müharibə gedir və savaş səngimir. Bu qüvvələr bir-birini, eləcə də iqtidar onları xaricdən maliyyələşməkdə, habelə xarici anti-Azərbaycan dairələrdən təlimat alıb ölkədə iğtişaş yaratmaqda ittiham edir. Bu zaman ilk növbədə ABŞ-ın adı hallandırılır. Belə bir zamanda ABŞ səfirinin müxalifət qüvvələri ilə görüşməsi vəziyyəti daha da gərginləşdirə, bütün şübhələri fövqəldövlətin üzərinə yönəldə bilər. Ona görə də yeni səfir hələ ki gözləmə mövqeyi tutub.

Digər səbəblərdən biri odur ki, İlham Əliyev islahatlar həyata keçirildiyini bəyan edib, bununla bağlı müvafiq fərmanlar imzalayıb. ABŞ-ın ölkəmizdəki baş diplomatı yəqin ki, belə bir məqamda müxalifətlə görüşmək istəmir və hakimiyyətin islahatlarının gedişatını müşahidə etməyə, nə ilə nəticələnəcəyini gözləməyə üstünlük verir.

Başqa yandan, Azərbaycan Avropa İttifaqı ilə may ayında saziş imzalamaq ərəfəsindədir. Bu məsələyə, bildiyimiz kimi, müxalifət qüvvələrinin də öz fərqli yanaşması var. Məsələn, Əli Kərimli tərəfdarları sazişdə bir sıra müddəalar öz əksini tapmadan onun bağlanmasını məqsədəuyğun hesab etmir, REAL isə əksini düşünür. Belə bir ziddiyyətli dövrdə ola bilsin ki, ABŞ səfiri onlarla görüşməkdən imtina etməklə Azərbaycanın Avropa İttifaqı ilə saziş bağlamasına müdaxilə etmək istəmədiyini göstərir".

**Politoloqun ehtimalına görə, Vaşinqton daha mühüm maraqlar səbəbindən Bakı ilə münasibətləri soyuqlaşdırmaq istəmir:** "Azərbaycanda BP-nin timsalında İngiltərənin, habelə Rusiyanın, İranın, "Bir kəmər bir yol" meqalayihəsini həyata keçirən Çinin, Türkiyənin geosiyasi, iqtisadi, ticarət maraqlarının olması sirr deyil. İngiltərə istisna olmaqla, bütün bu ölkələrlə ABŞ-ın gərgin münasibətləri var. Vaşinqton Ermənistan və Ukraynada faktiki üz-üzə dayandığı Rusiya ilə, NATO müttəfiqi kimi ondan üz çevirən Türkiyə ilə, ticarət savaşı apardığı Çinlə, embarqo tətbiq etdiyi İranla Azərbaycanda qarşılaşmaq istəmir və Əliyev iqtidarı ilə yaxşı münasibəti saxlamaqla, müxalifətdən uzaq məsafədə dayanmaqla burada marağı olan böyük dövlətlərin qarşısında öz marağını təsbit etməyə çalışır. O anlayır ki, indiki həssas dövrdə iqtidarla deyil, müxalifətlə işləsə, Vaşinqtonun nəinki Azərbaycandakı, habelə Azərbaycan üzərindən nüfuz dairəsinə daxil etmək istədiyi Cənubi Qafqaz, İran, Xəzər hövzəsi, Mərkəzi Asiya regionundakı mövqeləri xeyli zəifləyə bilər. Hər zaman bir iqtidarın verə biləcəyi daha çox şey var, nəinki müxalifətin. Vaşinqtondakı bəzi dairələrin planlarına əsasən, müxalifəti iqtidara gətirmək indiki məqamda yalnız "rəngli inqilab" yolu ilə mümkündür ki, Azərbaycanda bunun üçün zəmin yoxdur. Odur ki, ABŞ indiki iqtidarla işləməyə, müxalifətlə görüşüb onu qıcıqlandırmamağa çalışır".

**N.Məmmədova hazırkı bəzi radikal müxalifət qüvvələrinə ABŞ-ın əvvəlki kimi etimad bəsləmədiyi faktorunu da fikirlərinə əlavə etdi:** "Milli Şuranın Rüstəm İbrahimbəyovu prezidentliyə namizəd və özünün fəxri sədri göstərməsindən sonra oradakı qüvvələrin Rusiya ilə əlaqələri, yeri gəldikdə Rusiya ilə sövdələşməyə gedə biləcəyi ehtimalı Amerikaya onlara inanmağa imkan vermir. Həmçinin REAL-çıların Avropa İttifaqı ilə yaxınlaşmağa çalışması, bir dövr İran səfirliyi ilə təmaslarına görə prokurorluğa çağırılmaları ABŞ səfirini bu yeni özünü müxalifət adlandıran qüvvəyə də artıq şübhə ilə yanaşmağa vadar edə bilər".

**Onu da qeyd edək ki, ABŞ-ın yeni səfiri iki aya yaxındır Azərbaycanda olsa da demokratiya və insan haqları mövzusunda demək olar ki, danışmaması ilə də diqqət çəkir. İki gün öncə isə "Turan" agentliyinin Azərbaycan hakimiyyətinin geniş islahatlar aparılması barədə bəyanatlarını şərh etmək xahişinə cavabında səfir qeyd edib ki, islahatların aparılması səylərindən məmnundur:** "Azərbaycan bu sahədə böyük nailiyyət əldə edib, amma Azərbaycan gənc dövlətdir və bu istiqamətdə hələ böyük işlər görülməlidir. Biz ölkədə islahatlar aparılmasını dəstəkləyirik".

Azərbaycanda söz azadlığı və insan hüquqları sahəsində vəziyyət haqqında suala cavabda səfir qeyd edib ki, bu dəyərlər ABŞ siyasətində çox əhəmiyyətlidir və o, Amerikanın səfiri olaraq Azərbaycanda bu məqsədlərin dəstəklənməsi üçün əlindən gələni edəcək.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# ABŞ sərhədimizdəki "barıt çəlləyi"ni partladır

## **Fikrət Yusifov:** "İki ölkə arasında hərbi münaqişə qaçılmaz olacaq"
## **Elxan Şahinoğlu:** "Biz hər cür ssenarilərə hazır olmalıyıq"

**ABŞ ötən ilin noyabrından etibarən 8 ölkəyə - Çin, Hindistan, Yaponiya, Cənubi Koreya, Tayvan, Türkiyə, İtaliya və Yunanıstana İrandan neft almaqla bağlı etdiyi güzəştləri mayın 2-dən etibarən dayandıracaq. ABŞ İrandan neft alan ölkələrə açıq mətnlə xəbərdarlıq edir ki, Səudiyyə Ərəbistanından və digər OPEC ölkələrindən neft alsınlar.**



"Türkiyə ABŞ-ın İrandan neft idxalına görə bir sıra ölkələrə verdiyi möhləti uzatmamasına mənfi baxır". "Report" NTV-yə istinadən xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. Nazirin sözlərinə görə, möhlətin başa çatması qərarı regionda sülh və sabitliyə xidmət etmir, İran xalqına da ziyan vuracaq. M.Çavuşoğlu bundan əvvəl twitter-dəki səhifəsində də eyni mövqeni bildirmişdi: "Birtərəfli sanksiyaları və qonşularımızla necə əlaqələr quracağımız barədə hökmləri qəbul etmirik".

8 ölkə içərisində Türkiyədən başqa Vaşinqtona digər etiraz edən ölkələrin də olacağını qeyd etmək olar. Bu sıraya Çin, Hindistan kimi dövlətlərin adlarını əlavə etmək mümkündür. Amma istənilən halda cənub qonşumuzun fəlakətin bir addımlığında olduğu göz önündədir.

Onu da qeyd edək ki, İrana qarşı bu cür təzyiqlərə rəğmən, rəsmi Tehrana hərbi müdaxilələrin olunmayacağı daha real görünür. ABŞ dövlət katibi Mayk Pompeo belə son açıqlamalarının birində İrana yönəlik hərbi müdaxiləni istisna edib. Görünən odur ki, Amerika cənub qonşumuzu iqtisadi sanksiyalarla çökdürmək istəyir.

Bu təzyiqlərin qarşısında İranın geri çəkildiyini də demək olmaz. İran isə neft satışına qoyulan embarqoya cavab olaraq, dünya enerji bazarının böyük bir hissəsi, Yaxın Şərqdə istehsal olunan neftin təxminən 40 faizinin ixrac olunduğu Hörmüz boğazını bağlayacağı ilə təhdid edib.

Ekspertlər İran üzərində dolaşan "qara buludlar"ın bölgə dövlətlərinə, o cümlədən Azərbaycana ciddi təsir edə biləcəyini vurğulayırlar.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov deyir ki, hələ keçən ilin noyabr ayının əvvəlindən İrana qarşı tətbiq edilən sanksiyaların növbəti zərfində əsas hədəflərdən biri İran neftinin ixracına qadağaların qoyulması olub:** "Lakin ABŞ Administrasiyası son olaraq bu məsələdə 8 ölkəyə - Yaponiya, Çin, Cənubi Koreya, Hindistan, Türkiyə, Yunanıstan, İtaliya və Tayvana İrandan növbəti 6 ay ərzində neft ixrac etməyə razılıq verdi. Bu vaxtın sona çatmasına bir neçə ay qalmış Birləşmiş Ştatlar həmin ölkələri özlərinə yeni satıcılar axtarmağa səslədi. Bu isə o demək idi ki, ABŞ həqiqətən də bu ilin mayından adları çəkilən 8 ölkəyə də İran neftinin satışına qadağa tətbiq edəcək. Birləşmiş Ştatlar İrana qarşı belə sərt mövqe sərgiləməklə nəyə nail olmaq istəyir? Onun bu qadağaları Çin, Hindistan, Türkiyə kimi ölkələr tərəfindən necə qarşılanacaq? Rusiyadan "S-400" hava hücumundan müdafiə komplekslərini almaqla bağlı ABŞ-la münasibətləri kifayət qədər gərginləşmiş Türkiyə artıq bu məsələyə öz münasibətini ortaya qoyub. Türkiyənin xarici işlər nazirinin bununla bağlı söylədiyi tənqidi fikirlərdə deyilir ki, Birləşmiş Ştatların bu qərarı Yaxın Şərqdə vəziyyətin sabitləşməsinə kömək etməyəcək, ancaq İrana ziyan vuracaq. İrandan ən böyük neft ixracatçıları olan Hindistan və Çinin də bu məsələdə sərt mövqe sərgiləyəcəkləri gözlənilir. Lakin real olan budur ki, qərar faktiki olaraq İrandan neft ixracının azalmasına səbəb olacaq. Bir çox sahələrdə ciddi sanksiyalarla üzləşmiş İranın əsas valyuta gəliri mənbəyindən məhrum edilməsi bu ölkənin onsuz da ağır durumda olan maliyyə vəziyyətini bir qədər də ağırlaşdıracaq. Bu gün İranın maliyyə sektorunun beynəlxalq bank-hesablaşma əməliyyatlarını aparmağın əsas vasitəsi olan SWFT sistemindən məhrum edilməsi onsuz da bu ölkənin maliyyə durumunu acınacaqlı hala salıb. İran neftinin ixracına tam qadağa İranı danışıqlar masası arxasına oturmağa məcbur etməyi hədəfləyir. İran buna razılaşacaqmı? Bu, inandırıcı deyil. Deməli, İrana qarşı ABŞ-ın sanksiya maşını bundan sonra da davamlı şəkildə işləyəcək. Bu isə o deməkdir ki, sonda iki ölkə arasında hərbi münaqişə qaçılmaz olacaq. Düzdür, ABŞ rəsmiləri İrana hərbi müdaxiləni hələlik istisna edirlər. Lakin bu, o demək deyil ki, sonda hərbi müdaxilə olmayacaq. Real olaraq görünən budur ki, iki ölkə arasında baş verən hadisələrin inkişaf trayektoriyası vəziyyəti hərbi münaqişə müstəvisinə sürükləyir. Hərbi münaqişə baş verərsə, onun hansı formada baş verməsindən asılı olmayaraq bu bölgədə humanitar fəlakət yaradacaq. 80 milyon əhalisi olan İranın əhalisinin 10%-nin hərbi münaqişə nəticəsində ölkəsini tərk etməsi isə qonşu ölkələri ciddi problemlərlə üz-üzə qoyacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, indiki vəziyyət bölgədəki durumu ağırlaşdıracaq:** "Amerikanın məqsədi aydındır - İranı tam çökdürmək. Çünki İran gəlir əldə etməsə, Amerikada düşünürlər ki, daxildə guya bir hakimiyyət dəyişikliyi baş verə bilər. Nəticədə İran başqa dövlətlərin daxili işlərinə qarışmaya bilər. Amma Amerikanın belə asanlıqla hədəfə çatacağını düşünmürəm. İranı bu qədər küncə sıxışdırmaq bölgə ölkələrinə, o cümlədən, Türkiyə və Azərbaycana çox ciddi problemlər yarada bilər. Heç kəs İranın parçalanmasını, dağılmasını istəmir. Çünki bunun qonşu ölkələrə, o cümlədən, bizə çox ciddi təsirləri olacaq. Buna baxmayaraq, bizim istəyimizdən asılı olmayaraq Amerika bu siyasətini yürüdür. Bunun üçün də biz hər cür ssenarilərə hazır olmalıyıq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019



# Yorğunluqdan ölən MnSK-çılar və seçkidə “var-yox” müstəvisi

**Samir SARI**

**Özüm vaxtilə seçki komissiyasını üzvü, hətta katibi olduğum üçün dəqiqliklə deyə bilərəm: çox üzücü, orqanizm üçün zərərli, həm də xoşagəlməz işdir.**

Hər halda, bizim vaxtımızda (1992-ci il, iyunun 7-si) elə oldu, səhərdən axşamacan ac-susuz qaldıq (arada kiminsə termosundan süzüb içdiyimiz bir stəkan çay istisnadır), səhər saat 7-də evdən çıxdıq, gecə saat 3-də evə qayıtdıq, seçilən seçildi, seçilməyən ikinci oldu, amma ertəsi gün mərəkə içində birisi ağzını Allah yoluna qoyub “Guya bilmədik, seçkini saxtalaşdırdınız dəə” deyəndə, yanımda dayanan komissiya üzvü, türkün sözü, sinir krizi keçirdi və hiddətli cümləsinə belə başladı: “Yalançının var-yoxu...”

Ətrafdakı müşahidəçilər hiss elədi ki, söyüşü bu qədər ürəkdən səsləndirən adam azca tərbiyəsiz olsa da, xeyli dərəcədə haqlıdır. Heç bir saxtakar o cür ötkəm və qətiyyətli şəkildə “var-yox” polemikasına girməzdi.

Gerçəkdən də ideal seçki keçirmişdik, qonşu məntəqələri deyə bilmərəm, bizdə hər şey qızıl çəkilən aptek tərəzisi kimi dürüst olmuşdu.

Sonralar, açığı, seçki komissiyasının üzvü olmaq xeyli dərəcədə cansıxıcı, həm də xoşagəlməz olmağa başladı. Olurdu, arada səs verməyə gedirdim, görürdüm, məntəqələrdə qu deyəndə qulaq tutulur, çiyinlərinə palto, şal, adyal atmış komissiya üzvləri seçici görəndə sevinirdilər, az qalırdılar, durub termosdan çay süzsünlər. Amma bir pis iş vardı ki, seçicilər azca çox olanda komissiya üzvləri həyəcanlanırdılar. Hətta müşahidəçi olduğunu, seçkinin nə dərəcədə dürüst keçirilib-keçirilmədiyinə nəzarət edəcəyini deyənlərlə dalaşırdılar, sədr gah öz kabinetinə girirdi, gah komissiya üzvlərinin yanına gəlirdi, çıxıb İcra Hakimiyyətinə, polis idarəsinə, DSK-ya zəng edirdi, axır ki, yumurtası tərs gəlmiş toyuq kimi bir yerdə durmurdu. Hətta elə olurdu ki, əllərini yaxalarına atıb (bunu əsasən məntəqə seçki komissiyanın sədri olan qadın direktorlar edirdi), köynəklərini cıracaqları və müşahidəçinin onu zorlamağa çalışdığını iddia edəcəyi ilə hədələyirdilər.

Açığı, bu çox effektiv fənd idi. Heç bir müşahidəçi, nəzarətçi bənzər ittihamla üz-üzə qalmaq istəmirdi. Əlbəttə, polis zabitləri və ictimaiyyət bu cür itihamla üz-üzə qalmış müşahidəçinin məsumluğuna şübhə etməyəcəkdi, amma adamın “torbası” da, necə lazımdır, tikiləcəkdi. Ondan sonra müşahidəçi ha desin: “Axı mən niyə məhz onu, bu yaşlı qadını, həm də məhz seçki günü, özü də məhz MnSK-da zorlamalıyam, başqa gün, başqa qadın, başqa yer yoxdurmu?”

İndi başqa ölkələrdə keçirilən seçkiləri müşahidə edir, bu qənaətə gəlirəm ki, bizim seçki onların heç birinə bənzəmir. Ukraynada, sabirabadlılar demişkən, ebilə seçki oldu, bir adama bir şillə dəymədi, amma Türkiyədə seçki məntəqəsində 4 adama güllə dəydi. Ukraynada prezident Poroşenko seçkidə uduzdu, amma dara-bara salmadı, udanı təbrik etdi. Amma İstanbulda şəhər meri seçilən adamın mazbatasını 17 gündən sonra verdilər.

Dünən isə xəbər gəlib ki, İndoneziyada seçkilərdən sonra səslərin hesablanması zamanı yorğunluqdan azı 91 nəfər ölüb, 374 adamı da xəstəxanalara aparıblar. Yoxsa onlar da öləcəkmiş.

İndi bu da işdirmi? Bu baxımdan biz gözəgörünməzə şükür etməliyik. Çünki bizdə seçkilərdə yorğunluq olmur, heç səsləri də təkrar-təkrar saymağa ehtiyac yoxdur. Biz 6-7 saatın içində məsələni həll edirik, çıxıb gedir. Amma İndoneziyada səsvermə və səssayma prosesi 1 sutka çəkir. Hindistanda daha betərdir, günlərlə seçirlər. Adamda can qalar?

Heç bir seçkidə də 240 min namizəd iştirak edərmi? Nə xəbərdir? Cəmisi 20 min yer var, 220 mininiz mandat almayacaq, nə düşmüsüz ortalığa? Sizin üzünüzdən 91 məsum komissiya üzvü canından oldu...

Xüləs, qayıdaq öz ölkəmizə. Arzu edək ki, gələcəkdə bizdə seçkilər daha mükəmməl keçirilsin və onun dürüst keçirilib-keçirilmədiyini “var-yox” söyüşü ilə müəyyən etməyək. 9 il əvvəl belə bir haqq-hesab da oldu. Bir məclisdə biri iqtidardan komissiya üzvü, o biri müxalifətdən müşahidəçi olmuş iki qohumun sözü çəpləşdi, müxalifətçi saxtakarlıq barədə danışaraq söhbəti “var-yox” müstəvisinə gətirmək istəyirdi ki, qəfildən var-yoxlarının eyni adamlardan ibarət olduğunun fərqinə vardı və susdu.

Görürsünüzmü, hamımız qohumuq, xeyrimiz-şərimiz birdir, seçkiyə, mandata-mazbataya görə dalaşmaq nəyə lazımdır...

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası yaxın günlərdə təyin olunacaq. Cinayət işinin materialları artıq Bakı Hərbi Məhkəməsinə daxil olub və hakim Elbəy Allahverdiyevin icraatına verilib. Cinayət işi üzrə zərərçəkənlərin sayı da bəllidir.**

# Eldar Mahmudov “düyünü” əmisi oğlunun məhkəməsində açıla bilər

## **İlham İsmayıl:** “MTN-də nə baş veribsə, Eldar Mahmudovun göstərişi ilə həyata keçib”

7 nəfər sırasında YAP-ın Yasamal təşkilatının sədri Tağı Əhmədov da var. O, “Bakı Metropoliteni” QSC-nin rəisi vəzifəsində çalışarkən yolu MTN-dən düşən vəzifə sahiblərindəndir. Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun cinayət işi üzrə ifadə verərkən Tağı Əhmədov bildirmişdi ki, ona 3 milyon manat ziyan dəyib. Sabiq rəis ondan 3 milyon manatın alınmasında Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovun da adını çəkmişdi. Geniş ifadəsində Tağı Əhmədov “Mən də verdiyim pulu Akif Çovdarovdan istəyirəm. Eldar Mahmudovun köməkçisi ilə danışırdım. O bildirdi ki, mənə nəzarəti Akif Çovdarova tapşırıblar. Bundan sonra Akif Çovdarov məndən bahalı maşınlar almağımı istədi” deyə bildirmişdi. V.Mahmudov 2017-ci il noyabr ayının əvvəlində həbs edilib. Ona Cinayət Məcəlləsinin 179.3.1-ci (mütəşəkkil dəstə tərəfindən mənimsəmə və ya israf etmə), 179.3.2-ci (külli miqdarda mənimsəmə və israf etmə), 182.3.1-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 302.1-ci (əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olan şəxslər tərəfindən həmin tədbirlərin qanunvericiliklə müəyyən edilmiş əsaslar olmadan keçirilməsi şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda), 302.2-ci (eyni əməllər gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə) və 341.2.1-ci (bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə) maddələri ilə ittiham irəli sürülüb. 2004-cü ildə işə qəbul olunan Vüqar Mahmudov 2005-ci ildə “Hərbi xidmətlər gorə” medalı, 2006-ci ildə “Vətən uğrunda” medalı, 2008-ci ildə “İgidliyə görə” medalı, 2012-ci ildə isə “Vətənə xidmətə görə” ordeninin 3-cü dərəcəsi ilə təltif edilib, qısa müddət ərzində leytenant rütbəsindən polkovnik-leytenant rütbəsinə yüksəlib. V.Mahmudov NTN-in Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləsə də, faktiki olaraq nazirin köməkçisi funksiyasını həyata keçirib. Onun adı “MTN işi”nin istintaqı başlayandan dərhal sonra gündəmə gəlib. Vəzifədə olduğu dövrdə V.Mahmudovun MTN-də hətta nazir müavinlərindən də səlahiyyətli şəxs olduğu heç kimə sirr deyildi. Belə iddialar da vardı ki, MTN-çilərin qeyri-qanuni yığdıqları pullar V.Mahmudova verilib ki, bu səbəbdən də onu “qara kassa” adlandırırdılar. Onun bu pulları nazir üçün yığdığı bəlli olduğundan “obşiy kotyol”dan kimsə yayına bilməzdi. V.Mahmudovun nazirin adından danışmaq, əmr vermək və cəzalanacaq iş adamlarının siyahısını hazırlamaq kimi səlahiyyətlərinin olması xəbərləri də təkzib olunmur. Akif Çovdarov və digər MTN-çilərin məhkəməsində V.Mahmudov Tağı Əhmədov epizodu üzrə ifadə vermişdi. V.Mahmudov bildirmişdi ki, fəaliyyət göstərdiyi vaxt ərzində heç kim ona pul verməyib, qanun çərçivəsində işləyib, tapşırıqları yerinə yetirib. Prokuror belə cavan yaşda polkovnik-leytenant rütbəsi alması ilə maraqlanarkən V.Mahmudov qısa cavab vermişdi: **“Eldar Mahmudov nazirim və əzizim olub”**. V.Mahmudov Tağı Əhmədovdan 3 milyon dolların alınması ilə bağlı iddiaları rədd etmişdi. V.Mahmudov bu iş üzrə ibtidai istintaq zamanı da şahid qismində ifadə verərkən büdcədən pul mənimsənilməsi ilə bağlı “heç nədən xəbəri” olmadığını, “Akif Çovdarov tərəfindən sabiq nazirə çatdırılması üçün mənə hər hansı pul vəsaiti, o cümlədən ümumilikdə 890 min manat, 405 min dollar və 790 min avro məbləğində pul vəsaitlərinin göndərilməsi halları olmayıb”, demişdi. V.Mahmudovun adı son olaraq Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyevin və digərlərinin hazırda davam edən məhkəməsi zamanı gündəmə gəlib. Bildirilir ki, V.Mahmudov MTN-in Bakı rayon rəhbərlərinin əli ilə sahibkarları talan edirmiş ki, bu da məhkəmədə ciddi fakt kimi səslənib. V.Mahmudovun məhz bundan sonra həbsinə qərar verilib, 2017-ci ilin noyabrında isə sabiq nazir cinayət işi üzrə dindirilmək üçün Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırılıb.

Vüqar Mahmudovun cinayət işi üzrə məhkəməsi ərəfəsində Eldar Mahmudovun həbsi məsələsi müzakirə mövzusuna çevrilib. Sabiq nazirin əmisi oğlunun məhkəməsində həbs edilə biləcəyi ehtimalları səsləndirilir.



**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl deyir ki, Vüqar Mahmudovun məhkəməsində Eldar Mahmudovun həbsə alınacağı ehtimalına inanmır. İlham İsmayıl fikrini belə əsaslandırır:** “Eldar Mahmudovun həbsini gözləmirəm. Onun adı əmisi oğlu Vüqar Mahmudovun adı hallanan cinayətlərdən daha böyük cinayətlərdə hallanır. Həmin cinayətlərə görə Eldar Mahmudovu saxlamayıblarsa, kimisə qanunsuz saxlamaq, kimlərdənsə pul almaq, xərac toplamaq kimi ittihamlarla da onu tutmayacaqlar. İndiki halda hazırkı idarəetmə sistemi ilə onu belə bir perspektiv gözləmir”.

**İlham İsmayıl indiki vəziyyətin dəyişə biləcəyini də istisna etmir:** “Onun himayədarları qalınca ona dəyməyəcəklər. İstintaqa çağırıb dindirib buraxa bilərlər, amma indiki halda həbsdən söhbət getmir. Mümkündür ki, əmisi oğlunun işi üzrə məhkəməyə də dəvət edib sorğu-sual edərlər, amma konkret addım atılmayacaq. 2015-ci ilin oktyabrında vəziyyət daha kəskin idi. Eldar Mahmudovun işçilərindən həbs edilənlər vardı, hətta intihar edənlər də oldu. Bunlar sadə məsələlər deyildi. Hamı bilir ki, MTN-də heç kəs Eldar Mahmudovsuz bir addım belə ata bilməzdi. MTN-də nə baş veribsə, Eldar Mahmudovun göstərişi ilə həyata keçib. Eldar Mahmudovu əmisi oğlunun məhkəməsinə 1-2 dəfə çağırıb söhbət edə bilərlər. Bunu görüntü xatirinə, ”Eldar Mahmudovun heç bir səlahiyyəti yoxdur" düşüncəsini formalaşdırmaq üçün edə bilərlər".

**İlham İsmayıl “MTN işi” üzrə Eldar Mahmudovun statusunun ictimaiyyətə açıqlanmamasından da danışıb:** “Belə nəticə çıxarmaq olur ki, Eldar Mahmudovun əlində kompromatlar var. Eldar Mahmudovun 4 ildir ki, azadlıqda qalmasının başqa məntiqi izahı yoxdur. Bu işdə hüquqdan söhbət getmir. Çünki Eldar Mahmudovun həbsi üçün hüquqi əsaslar o qədər uzaqdan görünür ki...”

**İlham İsmayıl deyir ki, onun həbs edilməməsinin kökündə Eldar Mahmudovun hərəkətləri, perspektiv addımlarından çəkingənliyin dayandığını da istisna etmir:** “Eldar Mahmudov 4 il əvvəl vəzifədən çıxarılıb. Ona tabe olan şəxslər həbsə alınıb. Ona isə dəyməyiblər. Onun vəzifəyə təyinat alma ehtimalı qalır”.

Qeyd edək ki, 2015-ci ilin oktyabrında MTN-in az qala bütün rəhbərliyi, general heyəti həbs olunub. Həmin dövrdə Eldar Mahmudov barəsində hər hansı bir məlumat verilməyib. 2017-ci ilin noyabrında V.Mahmudov tutulandan sonra 4 dəfə istintaqa dəvət olunub, sorğu-sual edildikdən sonra sərbəst buraxılıb. 2018-ci ilin iyununda isə sabiq şöbə rəisi polkovnik Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatanda hakim Eldar Mahmudov və nazirliyin baş istintaq idarəsinin rəisi olmuş Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün zərərçəkmişlərin şikayəti əsasında prokurorluğa təqdimat göndərmişdi. Amma aylar ötsə də, bu qərardaddan xəbər çıxmayıb...

**E.MƏMMƏDƏLİYEV**
**“Yeni Müsavat”**

# Deputatdan Qərbin gizli Azərbaycan planı haqda sensasion açıqlamalar

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev azpolitika.info-ya müsahibəsində Qərbin Azərbaycanda islahatların dərinləşməsində heç də maraqlı olmadığını bildirib. Onun sözlərinə görə, inkişaf etmiş Qərb-xristian dünyasının yaradacağı təhlükələrə əhəmiyyət vermədən, prezident islahatları dərinləşdirir.**

## Qüdrət Həsənquliyev: "Qərb Azərbaycanda sabitliyi pozaraq inqilab etməyə, ölkəni daha 50 il geri atmağa cəhd edəcək"



**"Qərbin Azərbaycandan istəyi nədir" sualına cavabında isə Q.Həsənquliyev deyib ki, Qərb Azərbaycandan Türkmənistan kimi bir dövlət qurmaq, torpaqlarımızı işğaldan azad etmək üçün müharibə etmək barədə düşünməməyi istəyir. Deputat fikrini belə əsaslandırıb:** "Vaxtilə ABŞ səfiri Ramiz Mehdiyevə deyirdi ki, "insanları küçələrdən yığışdırın". Müxalifətə isə həmin vaxt başqa sözlər deyirdi, başqa bəyanatlar verirdi. Bu yetərli deyilmi?! Qərbin ölkəmizdə demokratik dövlət quruculuğu prosesinə kömək etmək üçün çox böyük imkanları olduğu halda heç vaxt bunu etməyib. Etdikləri isə qarşılığında nələrisə öyrənmək və bu yolla proseslərə mane olmaq məqsədi daşıyıb.

İlham Əliyev fərqindədir ki, islahatlar sürətləndirilsə, Qərb Azərbaycanda sabitliyi pozaraq inqilab etməyə, ölkəni daha 50 il geri atmağa cəhd edəcək. Onlar bacardıqları qədər xristian ölkəsi ilə müharibə vəziyyətində olan müsəlman Azərbaycanın siyasi və iqtisadi baxımdan inkişaf etmiş, müasir, böyük beynəlxalq nüfuza malik güclü bir dövlətə çevrilməsinə imkan verməməyə çalışacaqlar. Bu məqsədlərinə çatmaq üçün çalışacaqlar ki, daxildə hakimiyyət uğrunda 1993-cü ildəkindən də qanlı savaşlar törətsinlər. Radikal müxalifət düşərgəsində, ortada heç nə olmaya-olmaya öncüllük üçün bir-birinə "qardaş" deyib, amma bir-birinə qarşı hər cür mənəviyyatsızlığa əl atanlar, görün xaricdən real hakimiyyət vədi alarlarsa nələr edərlər... Qardaş qırğınına belə gedərlər.

Xristian dünyası bilir ki, güclü, demokratik, inkişaf etmiş Azərbaycan, hansı ki, bu yalnız islahatlar yolu ilə mümkündür, təkcə sözdə yox, əməldə də işğalla barışmayacaq. Onlara isə müharibə lazım deyil. Torpaqlarımızın xristian ermənilər tərəfindən məskunlaşdırılması, təbii sərvətlərimizdən və nəqliyyat infrastrukturumuzdan istifadə lazımdır".

**Q.Həsənquliyev bununla belə, bildirib ki, Qərbin istəklərinin nəzərə alınması və islahatların gecikdirilməsi sosial partlayışların baş verməsi ehtimalına görə daha təhlükəlidir:** "Ona görə də, prezident mövcud durumu nəzərə alıb, tədrici və ardıcıl addımlarla cəmiyyəti inkişaf etdirmək, müasir təfəkkürlü Azərbaycan insanı formalaşdırıb bu reallığı xarici dairələrə qəbul etdirmək istəyir. Vaxtilə söyləmişdim ki, islahatlar dərinləşdikcə təxribatların miqyası genişlənəcək. Amma biz xalqımızla bizi gözləyən təhlükələr barədə açıq danışmalı, təxribatlardan qorxmamalıyıq".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a şərhində Q.Həsənquliyevin çox ciddi və həqiqət yükü olan məsələləri dilə gətirdiyini bildirib:** "Maraqlı və çoxlarının başa düşmədiyi, yaxud bilərəkdən görməməzliyə vurduğu məqamdır. Bir çoxları hesab edirlər ki, Qərblə yaxınlaşma, onların dediklərini gözüyumulu həyata keçirməklə hər şeyə nail ola bilərik. Qərb dəyərlərini birmənalı şəkildə ideallaşdırmağa çalışırlar. Əlbəttə, Qərbdən də nəsə götürməliyik, amma kortəbii təqlidçilik çıxış yolu deyil. Bir anlığa sovet işğalı dövrünü xatırlatmaq istəyirəm, o vaxt Moskvadan gələn hər şeyin sözsüz qəbul olunması tələb olunurdu, qəbul etməyənlərə, yüngül desək, pis baxırdılar. İndi Qərbdən gələn hər şeyə də elə bir yanaşma ilə üz-üzəyik. Qərb öz maraqlarını güdür, Moskva kommunizm ideyaları adı ilə öz istəklərini bizə necə qəbul etdirirdisə, Qərb də liberal dəyərlər adı altında Azərbaycanda öz hegemonluğunu bərqərar etməyə çalışır. Ona görə də Azərbaycan rəhbərliyi və cəmiyyəti diqqətli olmalı, öz maraqlarımıza cavab verən milli dəyərlərimizə uyğun münasibətlər sistemini qurmalı, ağıllı və sərfəli islahatlar aparmalıdır. Biz özümüzün siyasi, iqtisadi, mənəvi sistemimizi qurmalıyıq. Qurduğumuz model bütün müsəlman və türk dünyası üçün nümunə ola bilər. Artıq bunun əlamətləri hiss olunur. İslam və türk dünyasında Azərbaycan modelinə maraq müşahidə olunur". **A.Nağı vurğuladı ki, Qərb ölkələrini təqlid edib, onlara uyğun model qurmaq yanlış yoldu:** "Bizim Qərbi təqlidlə quracağımız model bir çox cəhətlərinə görə əlverişli olmayacaq. Həmçinin Qarabağın işğaldan azad edilməsi işinə uyğun gəlməyəcək, bu yöndə səmərəli olmayacaq".

**Politoloq Məhəmməd Əsədullazadə isə bildirdi ki, Qərb islahatları dəstəklədiyini bəyan etsə də, islahatların bir həddə qədər aparılmasında maraqlıdır, həmin xəttin keçilməsində isə maraqlı deyil:** "Azərbaycan bir neçə on ildir ki, müstəqil və manevr siyasət yürüdür. Regionda maraqlı ölkələrin siyasətini tarazlaşdıra bilir. Qərblə və Rusiya arasında uzun illərdi ki, toqquşma hazırda yeni mərhələyə keçib. Belə bir situasiyada ölkəmizdə siyasi təhlükəsizliyi və stabilliyi qorumaq üçün mütləq şəkildə islahatlar labüddür. Qərb Azərbaycanda islahatları dəstəkləyib. Bununla paralel Qərbin Azərbaycana diktə etdiyi şərtlər olub, amma iqtidar bu şərtlərlə razılaşmayıb və razılaşmır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# AXH müəmması davam edir-barışıq ümidləri...

## Tural Abbaslı: "Şəxsi eqolar birliyə əsas maneə yaradır"
## İsgəndər Həmidov: "5 nəfər 12 nəfərin taleyini həll edə bilməz"

**Azərbaycan Xalq Hərəkatında bulanan sular durulmur. Qurumun son iki iclası heç də ürəkaçan olmayıb. Hərəkat daxilindəki iki narazı qrup fərqli məkanlarda iclaslarını keçirməyə davam edirlər. Bu da AXH-nin iki hissəyə parçalandığı anlamına gəlir.**

Artıq tərəflərdən biri, sabiq daxili işlər naziri İsgəndər Həmidovun rəhbərlik etdiyi qanad mayın 4-də Məclisi keçirmək barədə qərar qəbul edib. Eyni zamanda Məclisin iclasından sonra hərəkatın adından mitinq keçirmək qərarı verilib.



Tural Abbaslı



İsgəndər Həmidov

**AXH-nın hazırda dönəm sədri olan, AĞ Partiya başqanı Tural Abbaslı mövcud durumdan təəssüfləndiyini dilə gətirdi:** "Təəssüflə qeyd etməliyəm ki, son iclaslar yenə də birgə keçirilmədi. Hər iki tərəf ayrı-ayrı vaxtlarda iclaslar keçirdi. Eyni zamanda bu iclaslarda da müxtəlif qərarlar alındı. Baxmayaraq ki, sonuncu iclasda belə mən dönəm sədri kimi iclasın vaxtı və yeri barədə idarə heyətindən çıxarılan 6 nəfər xaric, İsgəndər Həmidov daxil hər kəsə məlumat vermişdim. Ancaq təəssüf ki, yenə də oradan kimsə iştirak etmədi. Yəni rəsmi olaraq AXH İdarə Heyətinin üzvlərinin tərkibi çıxarılan 6 nəfər və istefa vermiş Elşad Musayev xaric dəyişməyib. Mənə dönəm sədri kimi əgər müraciət olunarsa, təbii ki, görüşüb müzakirə apara bilərəm, burada qəbahətli bir şey yoxdur. Ancaq bu məsələdə təəssüf ki, şəxsi eqolar birliyə əsas maneə yaradır. Biz növbəti iclası 4-cü gün saat 3-də VİP-i qərargahında keçirəcəyik. Sabah idarə heyəti üzvü olan hər kəsə yenə məlumat göndərəcəm. Əgər onlardan kimlərsə qatılacaqsa, təbii ki, tamhüquqlu üzv kimi iclasda iştirak edə və istənilən məsələnin müzakirəsini aça bilər. Yəni demək istədiyim odur ki, seçim biz tərəfdən daha çox qarşı tərəfdədir. Onlar iclasda iştirak etmək istəyəcəksə, kimsə onlara hüquqi baxımdan qadağa qoya bilməz. Ancaq belə anlayıram ki, onlarda bu arzu yoxdur. Sözün doğrusu, bizim tərəfdəki üzvlərdə də bu yöndə xüsusi bir arzu hiss olunmur. Lakin mən dönəm sədri kimi üzərimə düşən vəzifəni obyektiv və qərəzsiz şəkildə, ən əsası da əsasnaməyə istinadən sona qədər aparacam. Zatən bu ayın 26-27-də dönəm sədirliyim yekunlaşır. Güman edirəm ki, mənim də olmasa, növbəti dönəm sədrinin müddətində bu konflikt birdəfəlik öz həllini tapacaq"

**İsgəndər Həmidov barışıq yollarından danışdı:** "Barışıq ümidləri hər zaman qalır. Biz buna hazırıq. Sadəcə olaraq, ənənəvi şəkildə həftənin birinci günü saat 15:00-da hərəkatın idarə heyətinin iclasını keçirdik. Mən əks tərəf demirəm. Çünki onlar da bizim dostlarımızdır. Son iclasda o tərəf desək, oradan çox ağıllı, düşüncəli insan olan Elşad Musayev hərəkatdan istefa verib. Bu mənim üçün çox ağrılı oldu. Bildiyiniz kimi, son iclasda Qurban Məmmədov hərəkatdan tamamilə xaric olundu. Apardığı antisiyasətə görə belə qərar verildi. Oradakı dostlarımız nə zaman istəsələr gələ bilərlər və iclası birlikdə keçirərik. Tural bəy ayın sonuna qədər dönəm sədridir. Fövqəladə iclaslar nəyə lazımdır, bunun səbəblərini bilmirəm. Azərbaycanda axı hansı fövqəladə vəziyyət var ki? 5 nəfər 12 nəfərin taleyini həll edə bilməz. Bu, demokratiyaya tamamilə ziddir. Barışıq, bir yerdə iclas keçirmək şansı hər zaman var. Bu hər zaman aktualdır, gündəlikdədir. Biz son iclasımızda mühüm qərarlar qəbul etdik, Məclisin gününü müəyyənləşdirdik. Eyni zamanda mitinq qərarı verdik. Qarşı tərəfdə vəziyyətin nə yerdə olduğunu deyə bilmərəm. Ötən həftənin şənbə günü Tural bəylə görüşdük. Gördüm ki, Tural bəyə görüşə gəlməməyini deyiblər. O gəldi və gələn kimi də 6 nəfərin hərəkatdan çıxarılması məsələsini qaldırdı. Çox güman ki, barışıq istiqamətində görüşlər keçiriləcək. Bu istiqamətdə addımların atılmasına böyük ehtiyac var".

**İ.Həmidov hərəkatın Məclisində əks qanadda təmsil olunanların idarə heyətinə üzv seçilməmə ehtimallarının olması ilə bağlı səslənən fikirlərə də mövqe bildirdi:** "Burada kiminsə idarə heyətinə üzv seçilməməsi üçün heç bir tədbir görülmür. Əsasnamədə yazılıb ki, Məclisin 3/2-sinin qərarı ilə idarə heyəti buraxıla bilər. Yəqin ki, Məclis keçiriləndə sədr də seçiləcək. Doğrudur, Məclis idarə heyətini formalaşdıracaq. Amma kiminsə idarə heyətinə üzv seçilməməsi üçün müəyyən fəaliyyətin aparıldığı yönündə deyilənlər qarayaxmadır. Bir dayaq dəstəsi yarada bilməyənlər haqqımızda bu cür şayiələr yaradırlar. Bizim üçün əsas olan odur ki, düz istiqamətdə işlər getsin. Kimin idarə heyətinə seçilməsi və ya seçilməməsi Məclisin işidir. Bəlkə idarə heyəti bu şəkildə tam tərkibdə qaldı, kim bilir. Qabaqcadan nəyisə söyləmək çətindir. Bilirəm, belə şayiələr buraxırlar ki, Məclis tamamilə İsgəndər Həmidovun təsiri altında formalaşacaq. Hətta belə düşünmüşəm ki, Məclis formalaşandan və sədr seçiləndən sonra məhz sədr idarə heyətinə rəhbərlik etsin. Məclisə sədr kimi seçiləcək 2-3 namizəd var. Bəri başdan deyim ki, o sırada mən yoxam. Çünki mən Məclis apara bilmərəm. Hərəkat adamıyam, Məclis adamı deyiləm. Amma Məclisə rəhbərlik edəcək kifayət qədər ağıllı şəxslər var. Mirmahmud Mirəlioğlu, Fuad Əliyev, Valeh Mirzəyev kimi isimlərin adlarını qeyd edə bilərik".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Tanış dəli

Zamin HACI
zaminhaci@gmail.com

"Bizə ağıllılar lazım deyil. Bizə sədaqətlilər lazımdır"

***(Struqatski qardaşları, "Tanrı olmaq çətindir")***

**Çox ciddi bir hadisə uca millətin diqqətindən kənarda qaldı, halbuki demokratik inkişafımız qədər vacib, kosmosu fəth eləməyimizdən üstün bir söhbət idi. Bildiyiniz kimi, hansısa təxribatçı ünsürlər milli orfoqrafiya qaydalarımıza qənim kəsilərək "nazir" sözünü böyük hərflə "Nazir", "alqı-satqı" və "əsgər" sözlərini isə "alğı-satqı", "əskər" kimi yazmağımızı istəyirdilər. Hazırlanan proje Nazirlər Kabineti yanında orfoqrafiya idarəsinə təqdim edilmişdi, az qalırdı qüvvəyə minsin, şükür, idarə bunu rədd etdi, dilimiz xilas oldu. İndi bizdə ancaq bir vəzifəni böyük hərflə yazmağa icazə var, özünüz bilirsiniz. Açığı, mənim icazəm yoxdur onun adını çəkim, çünki çəksəm gərək öz adımı balaca hərflə yazım. Çətin işdir. Dözməliyik.**

Hər halda, bizdə dilçilik sahəsində atılan addımlar, ASAN, DOST, Məhəbbət Nazirliyi kimi idarələrin yaranması yeni dil formalaşmasına gətirir. Rəhmətlik Oruell və Bulqakovun yeri məlum. Necə deyərlər, adamlar kitabı bədii əsər kimi yazmışdılar, biz istifadə təlimatı kimi yararlanırıq. Soyuducunun, paltaryuyanın-zadın üstündə gələn təlimat kimi.

Yeni dövrümüzün maraqlı qəhrəmanları da üzə çıxır. Keçən həftə onlardan biri Bakı metrosunda məktəbli qızı döymüşdü. Sonra polis ona 15 sutka həbs cəzası verdi, şəkilləri qəzetdə çıxdı. "Yeni Müsavat" yazdı ki, həmin bu tip haçansa redaksiyaya da gəlib canlı yayıma çıxmağı tələb eləyibmiş. Şəklini görən kimi tanıdım: onu mən də görmüşdüm. Ətraflı yazım, çünki heç yadımdan çıxmayan bir hadisədir.

Haradasa iki ay qabaq olardı, "28 May" metrosundan çıxıb üzü dənizə tərəf gedirdim. Bu zaman belində çanta, gözündə eynək bir cavan oğlan küçədə qışqıra-qışqıra bu iki cümləni təkrar eləməyə başladı: "Tüpürüm sizin Avropa dəyərlərinizə! Yaşasın milli Azərbaycan dəyərləri!" Onun fiziki görkəmini yuxarıda niyə xüsusi yazdım, onu deyim. Məsələ ondadır ki, adam görkəmcə çağdaş bir gəncə, haradasa elə Avropa dəyərlərinə söykənən tipə oxşayırdı, hətta bir suyunun köhnə dostumuz, yazıçı-publisist, tərcüməçi Əli Novruzova (həmin an bu müqayisə ağlıma gəlmiş, gülmüşdüm) bənzədiyini qeyd etməliyəm. O üzdən adamın Avropa dəyərlərini söyməsi bir az mənə çöçün gəldi. Ancaq bağıra-bağıra da sürətlə aradan çıxdı, heç soruşa bilmədim qardaşımız niyə Avropa dəyərlərini bəyənmir. Ətrafdakı camaata da söhbət qəribə gəlmişdi, açığı, onun psixikasında müəyyən problem olduğunu zənn edib gülənlər vardı. (Açığı, mən özüm də bir az bu cür zənn elədim, ancaq nə biləsən... Ağıl və dəlilik çətin temalardır, prinsipcə bu dünyada kimin dəli, kimin ağıllı olmağını isbat eləmək mümkünsüzdür. Hansısa alimin dediyi kimi: "Şüurun nə olduğunu dərk eləmək pəncərədən baxıb özünün küçədən keçdiyini görmək kimi bir şeydir").

Üstündən az keçmədi ki, mən "dostumuzun" başqa bir tədbirdə canfəşanlıq edərkən videosunu gördüm: feministlər ölkədə qadınlara qarşı zorakılığa etiraz yürüşünə çıxmışdılar və yürüşü dağıdanlar təkcə polislər deyildi. Düz tapmısınız, bu gənc də orada qadınlara yumruq atırdı.

Mən o adamın adını bilirəm, ancaq fikir verdinizsə yazmıram - qəsdən edirəm. Niyə? Çünki mənə elə gəlir o gənc son 25 ilin ortaya çıxardığı azərbaycanlı tipidir, bizim ümumiləşdirilmiş bir obrazımızdır. Biz xaricdən avropalıya bənzəyirik, ancaq daxilən "milli mentalitetimizlə" yaşayırıq, hərçənd bizim mentalitetdə balaca qız uşaqlarını döymək olmamışdır. Lap olsa belə, indiki qədər kök atmamışdır. Azərbaycan dəyərləri adlanan bir uydurmanı Avropa dəyərlərinə - insan haqlarına, azadlığa, demokratiyaya qarşı qoymuşuq. Həmin gənc haqda məlumatda indiyəcən Müsavat, YAP, REAL və sairə partiyaların üzvü olması yazılmışdı. Bu da özünə yer tapmayan, şəxsi maraqlarını təmin etmək üçün hər yuvaya qonan azərbaycanlının ümumi tipajıdır, şəklidir. Ona 15 sutka verdiniz, bəs qalanlarını, qalanlarımızı nə edəcəyik?

Görkəmli sənətkarlar demişkən, vəziyyət bizim düşündüyümüzdən ağırdır.

**Dünən Ermənistandakı xunta rejiminin çöküşünün 1 ili tamamlandı. Məhz 2018-ci il aprelin 23-də Qarabağ klanının 20 illik hakimiyyətinə rəsmən son qoyuldu. Özünün hazırladığı yeni konstitusiya əsasında cəmi iki gün baş nazirlik edən Serj Sərkisyan Nikol Paşinyanın idarə elədiyi narazı kütlənin təzyiq altında istefaya getdi. Mayın 8-də isə Paşinyan yenə məhz kütlənin təzyiqi ilə Sərkisyan tərəfdarlarının çoxluqda olduğu parlament tərəfindən baş nazir seçildi.**

# Ermənistanda inqilabın ildönümü: panika və çarəsizlik...

## Köçəryan-Sərkisyan rejiminin çöküşündən 1 il ötdü; düşmən ölkənin xalqı isə yavaş-yavaş eyforiyadan çıxıb məyusluq zolağına girir; erməni portalından inqilabçı baş nazirə ittihamlar; "Onun "sehirli çubuğu" yox imiş..."



Bir il öncə Ermənistan korrupsioner-kriminal rejimdən qurtuldu. Ermənilər bunu toy-bayram kimi qarşıladılar. Çünki kriminal oliqarxiyanı deyil, sadə xalqı təmsil edən Nikolun onları "ağ gün"ə çıxaracağına fantastik inamları var idi. Ancaq işğalçı ölkə Qarabağ klanından qurtulsa da, ötən 1 ildə ağır sosial-iqtisadi problemlərin heç birindən, o sırada kütləvi işsizlikdən və yoxsulluqdan, ölkədən davam edən köçdən yaxa qurtara bilmədi. Problemlərin problemi sayılan Qarabağ məsələsi, hər an qızışa biləcək müharibə təhlükəsi də öz yerində.

Bu səbəbdən Ermənistanda artıq panika qarışıq, dərin məyusluq dönəmi başladığını söyləmək olar. İnqilabsonrası eyforiya xeyli dərəcədə arxada qalıb. Bunu erməni toplumundakı əhvaldan və bir də vaxtilə Paşinyanı qızğın müdafiə eləmiş yerli mediada artan tənqidi yazılardan aydın şəkildə görmək mümkündür. Azərbaycan üçün də aktuallığını nəzərə alıb onlardan birini təqdim edirik.

*****

"Düz 1 il öncə - aprelin 23-də "aşağıdan" güclü zərbələr nəticəsində nifrət mənbəyi olan Sərkisyan rejimi çökdü. Məhz aprelin 23-ü Ermənistanda "məxməri inqilab"ın qələbə günü hesab edilə bilər. Biz bu rejimin çöküşünə nə qədər böyük ümidlər, hakimiyyətə yeni siyasi qüvvələrin gəlişi ilə bağlı nə qədər xoş arzular qurmuşduq. Bu gün artıq sakit vicdanla ötən ilin yekununu eləmək olar: o anlamda ki, bizim hakimiyyət xalqın ümidlərini doğrulda bildimi? Əfsus, nə qədər kədərli olsa da, etiraf olunmalıdır ki, Paşinyan çox az şey edə bildi".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözlər armenianreport.com portalında Tevos Arşakyanın müəllifi olduğu "Sərkisyan getdi, Paşinyan gəldi, Ermənistanın problemləri qaldı" sərlövhəli məqaləsində yer alıb.

**Ermənistan toplumunda Paşinyan iqtidarına münasibətdə hökm sürən ovqatı ifadə edən müəllif daha sonra yazır:** "Daxili siyasətdən başlayaq. Hakimiyyətə gələn kimi Paşinyan qollarını çırmayıb köhnə hakimiyyət və onun ən korrupsiyalaşmış adamları ilə mübarizəyə başladı. Bir çoxunu həbsə atırdı. Ancaq nə qədər qəribə də olsa, köhnə rejimlə mübarizədə Paşinyan qəfildən yarı-yolda dayandı. Doğrudur, Robert Köçəryan (eks-prezident - red.) və Manvel Qriqoryan (keçmiş "səhra komandiri" - red.) həbs edildilər. Ancaq Sərkisyanlar ailəsi və dəstəsi azadlıqda qaldı. Hətta Sərkisyanın "pul kisəsi" - Saşik Sərkayana oğurladığı pullardan 20 milyon dollar büdcəyə ödədikdən sonra rahatca xaricə getməyə icazə verildi. Gülməlidir? Əlbəttə. Çünki Sərkisyan ailəsinin varidatı bir neçə milyard dollar həcmində qiymətləndirilir. Xalqın qanını soran və Köçəryan-Sərkisyan rejiminə can-başla qulluq eləmiş bir çox digər oliqarxlar da azadlıqda qaldılar".

Məqalədə Paşinyanın iqtisadi sferada da öyünüləsi işlərinin olmadığı bildirilir: "Təəssüf ki, Paşinyan hökuməti iqtisadiyyatda da uğura imza ata bilmədi. Korrupsiyanın miqyası azaldı, ancaq o, əsas problemlərdən biri olaraq qalır. Ölkəyə vəd edilən xarici sərmayələr də gəlib çıxmadı. Onlarsız isə nə köklü islahat, nə də iqtisadi dirçəliş mümkündür. Yeni iş yerləri əvəzinə, büdcə islahatları və optimallaşmanın nəticəsi kimi, minlərlə yeni işsiz peyda oldu. Ölkənin xarici borcları artmaqda davam edir. Qısası, məlum oldu ki, Nikol Paşinyanın korrupsiya, miqrasiya, yoxsulluq, işsizlik kimi problemlərin həlli üçün "sehirli çubuğu" yox imiş".

**Müəllifə görə, xarici siyasət sahəsində də analoji vəziyyətdir:** "Paşinyan özünün açıq qərbçi-müxalifətçi obrazına baxmayaraq, hakimiyyətə gələndən sonra nəinki Ermənistanı Rusiya təsirindən qurtardı, hətta əksinə, ölkənin Moskvadan asılılığını gücləndirdi. Bu zaman Ermənistan bir addım belə Qərbə yaxınlaşmadı, hərgah, Qərb inqilab sonrası İrəvandan müəyyən impulslar gözləyirdi. İndi paradoksal vəziyyət yaranıb: Kreml hələ də Paşinyana inamsız nəzərlə baxır və onun qərbçi olmasından şübhələnir, Qərb isə onun simasında Rusiya-Ermənistan əlaqələrinin dərinləşməsi tərəfdarını görür. Yəni Nikol Vovayeviç Qərb üçün yadlaşsa da, Rusiyaya da doğma ola bilməyib. Ən betəri odur ki, o, nə Qərbdəki, nə də Rusiyadakı erməni lobbisi ilə dialoq qura bilib. Onların heç biri ilə dialoq alınmayıb. "Məxməri inqilab" adlı körpənin 1 yaşının acı yekunu budur".

**Məqalənin sonunda erməni baş nazirə xəbərdarlıq edilir:** "Paşinyan unutmamalıdır ki, onun yüksək reytinqi əbədi deyil. Hər halda, fakt faktlığında qalır ki, onun hakimiyyəti dövründə yaxşılaşma olduqca cüzidir və çətin ki, bunu onun aktivinə yazmaq mümkün olsun".

*****

Erməni siyasi şərhçinin inqilabçı baş nazir haqda sərt tənqidi fikirlərinə yalnız onu əlavə eləmək qalır ki, Paşinyan bu bir ildə problemlərin problemi olan Dağlıq Qarabağ məsələsində, ümumiyyətlə, əlini "ağdan qaraya" vurmadı. Yaxud vurmaq istəmədi, bundan ehtiyatlandı. Halbuki, erməni xalqının irili-xırdalı bütün dərdlərinin açarı istisnasız olaraq, Qarabağ probleminin həllinə dirənir. Nikol Paşinyan məhz ondan başlamalı idi.

**Hələ gec deyil...**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

# Metropoliten rəhbərliyinə növbəti sərt ittihamlar

## “Maşinistlərə bildirilir ki, hərəkət zamanı qatarların və sərnişinlərin təhlükəsizliyini bir kənara qoyub, idman hərəkətləri edin...”

**“Bakı Metropoliteni” QSC-nin bir qrup əməkdaşı-qatarların hərəkət təhlükəsizliyi üzrə müfəttiş Nazim Abdullayev, maşinistlər Asif Rzayev və Fikrət Şıxaliyev növbəti dəfə “Yeni Müsavat” qəzetinin redaksiyasına gələrək, metropoliten rəhbərliyindən şikayətlərini bildiriblər. Şikayətçilərin sözlərinə görə, mətbuatda problemləri ilə bağlı məsələ qabardılsa da, hələ də metropolitendə vəziyyət düzəlməyib, əksinə, daha da pisləşib.**





25.12.2018 Bakı şəhəri

"Avtomotonəqliyyat" kolonu "Motoreis" distansiyasında təsərrüfat qatarlarının, platformaların əyləc sistemlərinin və texniki vəziyyətinin yoxlama

AKTI

Biz aşağıda imza edənlər Qatarların hərəkət təhlükəsizliyi üzrə müfəttiş – Elnur Əlləzov, "Avtomotonəqliyyat" kolonunun Baş mühəndisi - Natiq Xəlilov, "Motoreis" distansiyasının rəisi Mübariz Qəhrəmanov, "Motoreis" distansiyasının mexaniki-Elnur İbrahimov, aparıcı mühəndis – Əlislam Nəzirov bu aktı tərtib edirik ona görə ki, həqiqətən tərəfimizdən 29 (iyirmi doqquz) ədəd təsərrüfat qatarının və 17 ədəd platformanın əyləc sistemi yoxlandı və ümumi texniki vəziyyətinə baxış keçirildi.

Baxış zamanı 26 ədəd təsərrüfat qatarında heç bir texniki nasazlıq aşkar edilmədi. 3 ədəd – AQMu 2009, 5783, 2239 saylı təsərrüfat qatarlarının maşinist və maşinist köməkçiləri olmadığından istismar edilmir. 17 ədəd platformada əyləc kolodkaları var, əyləc sistemi quraşdırılmayıb.

Aktın doğruluğunu imzamızla təsdiq edirik.

| | | |
|---|---|---|
| Q H T müfəttiş | [imza] | Elnur Əlləzov |
| A M B | [imza] | Natiq Xəlilov |
| AMRD | [imza] | Mübariz Qəhrəmanov |
| AMRD a.mühəndis | [imza] | Əlislam Nəzirov |
| AM RM | [imza] | Elnur İbrahimov |

Onlar redaksiyamıza birgə müraciətlərində aşağıdakıları bildiriblər: “Nazirlər Kabinetinin 28 oktyabr 2010-cu il tarixli 189 saylı qərarının 2.1.2-ci bəndində, qatarların hərəkət təhlükəsizliyinin təmin edilməsi, 2.2.8-ci bəndində isə qatarların həm hərəkət, həm də obyektlərin yanğın təhlükəsizliyinin təmin edilməsi göstərilib. Həmçinin ”Metropolitenin texniki istismar qaydaları" kitabının 18.36-cı bəndində, yolda hərəkət zamanı maşinistə yolun boşluğuna, yolayrıcı qurğuların vəziyyətinə, işarələrə nəzarət etməkdən və qatarı idarə etməkdən yayınmaq qadağan edilir. Bütün bunlara baxmayaraq, bu ilin aprel ayının 17-də Hərəkət qatarının istismar üzrə iş departamentinin rəisi Akif Əhmədov tərəfindən iş yerində (maşinist kabinəsində) yuxulama hallarını istisna etməkdən ötəri təlimatlar çatdırılıb. Təlimatda maşinistlərə bildirilir ki, hərəkət zamanı qatarların və sərnişinlərin təhlükəsizliyini bir kənara qoyub, idman hərəkətləri edin. Yəni maşinistlərə idarəetmədən yayınmaq tövsiyə edilir. Yəqin ki, bundan sonra maşinist peşəsinə qəbul İdman Akademiyasının məzunları arasında aparılacaq".

**Şikayətçilər haqqında bəhs etdikləri təlimatın nüsxəsini redaksiyaya təqdim ediblər. Onlar daha sonra aşağıdakıları söyləyiblər:** “25.09.2017-ci il tarixindən etibarən Zaur Hüseynovun əmri ilə maşinistləri yeni, çox ağır iş qrafikinə keçirildikdən sonra onlar bu əzablı qrafikə uyğunlaşa bilmirlər. Onlar maşinist kabinəsində yatır, stansiyaları qismən və ya dayanmadan keçirlər. Məsələn, aprelin 15-də 30 saylı marşrutun maşinisti Elçin Ağayev ”20 Yanvar" stansiyasını qismən keçib. Aprelin 16-da 39 saylı marşrutun maşinisti Vüsal Hacıyev “Ulduz” stansiyasını dayanmadan keçib. Aprelin 21-də 9 saylı marşrutun maşinisti Rəşad Baxşəliyev “Qara Qarayev”dən “Koroğlu” stansiyasına 5 vaqonun qapısını açıq qoyaraq gedib. Bu, olduqca təhlükəli bir məsələdir. Ay ərzində bu kimi hallar tez-tez baş verir. Halbuki əvvəlki illərdə nadir hallarda belə hadisə olardı. Metropoliten sahəsi üzrə “Təlimatçı maşinist” başlığında, təlimatçı maşinistlərin lokomotiv briqadaları ilə bilavasitə lokomotivlərdə, trenajorlarda işçi sxem və modellərdə texniki, nəzəri, əməli təlim keçmələri göstərilib. Metropolitenin Təlim-Tədris Mərkəzinin texniki kabinetində maşinistlər üçün vaqon kabinəsi trenajoru quraşdırılıb ki, bu da maşinistlərin biliklərinin artırılmasına deyil, onların qoruxudulmalarına, qərəzli imtahan edilmələrinə xidmət göstərir".

**Şikayətçilər söyləyiblər ki, “Qatarların hərəkətinin təşkili və manevr işi” üzrə təlimatın 6.9-cu bəndində nasaz əyləcləri olan, nasaz qoşqu qurğularının xəttə buraxılması qadağan edilir:** “Metropolitendə isə gecə işində motovozlarla daşınan yüklər heç bir təhlükəsizlik tədbirləri görülmədən daşınır. Yük platformalarının əksəriyyətində əyləc sistemi yoxdur. Dəfələrlə Zaur Hüseynova bu barədə məlumat verilməsinə, məktub çatdırılmağına baxmayaraq heç bir tədbir görülmür. Bu barədə də akt var da var” (şikayətçilər aktı təqdim etdilər- Ə.R).

Depolar üzrə İş Departamentinin akkumulyatorların təmiri sahəsində vəziyyət çox acınacaqlıdır. Zaur Hüseynovun dövründə alınan keyfiyyətsiz akkumulyator batareyalarının əksəriyyəti artıq sıradan çıxıb, xeyli hissəsində isə işləmə müddəti çoxdan başa çatıb. Keçmiş sovet respublikalarında çoxdan ömrünü başa vurmuş H-80 tipli akkumulyator batareyaları Bakı Metropolitenində hələ də işlənilir. Şikayətçilər akkumulyatorların vaxtı ötmüş vaqonların nömrələrini də redaksiyamıza təqdim ediblər.

Qeyd edək ki, “Bakı Metropoliteni” QSC-yə ittihamlarla bağlı sorğu göndərsək də müvafiq cavab ala bilmədik.



DAİMİ TƏLİMAT

İş yerində yuxulama hallarını istisna etməkdən ötrü maşinistlərə tövsiyyələr.

Yorğunluq və yuxusuzluq əlamətlərinin təzahürü halında, belə vəziyyətdən çıxış üçün tədbir görmək:

1. Mənzildə hərəkət zamanı qatarın “böşuna qaçış” (выбег) və yolun böşluğunda, maşinistə maşinistin kreslosundan qalxmağa və bir neçə (bir qədər) elementar fiziki hərəkət etməyə tövsiyyə edilir.
2. Kabinada səs-küylərin səviyyəsinin artımı üçün pəncərəni açmaq.
3. Zəruri olduqda qatar dispetçeri və ya stansiya üzrə növbətçi vasitəsi ilə təlimatçı-maşinist çağırmaq, dəyişməni (подмен) tələb etmək.
4. Əgər sizin kritik əhvalınız hərəkətin təhlükəsizliyinə təsir edə bilərsə, qəti tədbirə qaçın, öz vəziyyətiniz haqda qatar dispetçerinə məlumat verin və hərəkət qatarını xətdən ən yaxın yol inkişafı olan stansiyaya çıxardın.

Hərəkət qatarlarının istismarı üzrə iş departamentinin rəisi [imza] Akif Əhmədov

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**

# Ən yüksək maaş alan məmurlar sırasında MSK sədri də var

## MSK üzvlərinin aylıq vəzifə maaşı 1280 manatdır




**Demokratik Təşəbbüslər İnstitutunun rəhbəri, bir zamanlar Ümid Partiyasından Mərkəzi Seçki Komissiyasının üzvü olmuş Akif Qurbanovun Qərb dövlətləri səfirliklərinin müxtəlif layihələrə ayırdıqları qrantların hesabına varlanması və daşınmaz əmlak əldə etməsi barədə KİV-də informasiyalar yayılıb.**

Yayılan informasiyalarla bağlı açıqlama yayan Akif Qurbanovun fikirləri arasında, aşağıdakı cümlə də yer alıb: “2016-cı ilədək Mərkəzi Seçki Komissiyasında çalışıb və yüksək əmək haqqı almışam. Bundan əlavə, müxtəlif seçkilər dövründə rəsmi şəkildə yaxşı məbləğdə mükafat almışam. Sonrakı dövr üçün fəaliyyətimlə bağlı onu deyə bilərəm ki, 3 il üçün 100 min manatdan çox gəlirim olub və bunun da müvafiq vergisini ödəmişəm və vergi borcum yoxdur”.

Maraqlıdır, bəs Mərkəzi Seçki Komissiyasının işçiləri nə qədər maaş alırlar?

Öncə məlumat verək ki, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının statusu, fəaliyyət istiqamətləri və səlahiyyətləri Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən olunub. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası daimi fəaliyyət göstərən dövlət orqanıdır. Bu orqanın müxtəlif vəzifələri var. Belə ki, MSK seçkilərin və referendumun hazırlanmasında və keçirilməsində vətəndaşların seçki hüquqlarına riayət olunmasına nəzarət edir, aşağı seçki komissiyalarının işi üçün zəruri olan texnoloji avadanlığın normativlərini hazırlayır və təsdiq edir, bu normativlərə əməl olunmasına nəzarət edir, aşağı seçki komissiyalarına hüquqi, metodiki və texniki təşkilati kömək göstərir. Eyni zamanda dövlət orqanı seçki bülletenlərinin, referendumda səsvermə bülletenlərinin, seçici siyahılarının, digər seçki komissiyalarının səsvermə protokollarının və referendum sənədlərinin nümunələrini və onların tərtib edilməsi qaydasını müəyyən edir. Mərkəzi Seçki Komissiyasının öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlar və normativ xarakterli aktlar dövlət orqanları, bələdiyyə qurumları, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, vəzifəli şəxslər və seçicilər üçün məcburidir.

İşçilərin maaşına gəlincə isə bu dövlət orqanının sədri ölkədə ən çox rəsmi maaş alan məmurlar sırasındadır. Sonuncu dəfə bu dövlət orqanının əməkdaşlarının maaşları 2018-ci ilin iyun ayında qaldırılıb. Belə ki, iyunun 6-da prezident İlham Əliyev bununla bağlı “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə" sənəd imzalayıb.

Sərəncama əsasən, MSK sədrinin aylıq vəzifə maaşı 1855 manatdan 2040 manata, MSK sədrinin müavininin aylıq vəzifə maaşı 1720 manat manatdan 1895 manata, MSK katibinin aylıq vəzifə maaşı 1275 manatdan 1405 manata qaldırılıb. MSK üzvlərinin aylıq vəzifə maaşı isə 1280 manat olub. Həmin vaxta qədər MSK üzvləri 1160 manat aylıq vəzifə maaşı alıblar.

Yəni konkret desək, Akif Qurbanovun MSK-da çalışdığı zaman rəsmi maaşı 1160 manat olub.

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ danışıqlarında real dönüşü ləngidən səbəb

## Nizamlama prosesində imitasiya dövrü nə vaxt bitəcək? **Politoloq:** “Ermənilər böyük dövlətlərin agenti olmağı xoşlayırlar...”

**Ermənistanda hakimiyyət dəyişsə də, İrəvanın Dağlıq Qarabağ məsələsinə ilhaqçı mövqedən yanaşması dəyişməz qalır. Siyasi təhlilçilərin vurğuladığı kimi, hətta bəzi məqamlarda Paşinyan iqtidarı daha radikal və daha həyasız mövqe sergiləyir, Dağlıq Qarabağ ətrafındakı ərazilərin belə qaytarılmasının mümkünsüzlüyünü bildirirlər.**



Rasim Ağayev

Belədə təbii ki, məntiqli sual yaranır ki, mövcud durumda erməni tərəfi ilə istər Moskvada olsun, istərsə də Paris və ya Vaşinqtonda sülh mövzusunda danışıqlar aparmağın anlamı qalırmı? Əgər onlar bu yolla vaxt uzatmağa, işğal rejimini davam etdirməyə çalışırlarsa, Azərbaycanın taktikası necə olmalıdır? Sülh prosesində imitasiya dönəmi nəhayət ki, bitəcəkmi?

*****

**“Ermənilərlə hazırda danışıq aparmaq çətindir. Onlar İrəvanda bir, Moskvada başqa söz deyə, Vaşinqtonda da başqa bir şey iddia edə bilərlər. Nəzərə alsaq ki, Moskva da, Vaşinqton da İrəvanın tərəfindədir, bu, Ermənistanın əlinə işləyir”.**

**“Yeni Müsavat”ın məlumatına görə, bu sözləri politoloq Rasim Ağayev rusdilli minval.az-a rəsmi İrəvanın Moskvadakı son danışıqlar zamanı Rusiya tərəfindən 2016-cı ildə irəli sürülən planın müzakirə edilmədiyini bəyan etməsini şərh edərkən deyib.**

“Ermənilər Cənubi Qafqazda peyda olandan daim yalan danışırlar. İddia edirlər ki, onlar burada doğulublar və ərazilər də onlarındır” deyən politoloq hesab edir ki, sülh danışıqlarının alternativi müharibədir: “Çünki nə hərb, nə də sülh variantı sonsuzadək sürə bilməz. Odur ki, İrəvanın rəsmi mövqeyi ilə bağlı Azərbaycan tərəfdən yüksək səviyyədə aydın bir yanaşma olmalıdır”.

**Onun sözlərinə görə, Ermənistanın rəhbərliyi, bu ölkədəki siyasi qüvvələr özlərini birmənalı şəkildə “haqlı” sayır:** “Onlar başqalarının torpaqlarını ilhaq eləmək haqqına sahib olduqlarını düşünürlər. Bunu normal hesab edirlər. Əgər onlar Azərbaycanla bu məsələni bitirə bilsələr, 5 ildən sonra eyni şeyi Gürcüstanla başlayacaqlar. Daha sonra məqbul şərait yetişərsə, Türkiyəyə qarşı iddia irəli sürəcəklər. Vaxtilə erməniləri həyasızcasına onlar üçün yad olan ərazilərdə məskunlaşdırdılar. Bu, hazırkı beynəlxalq münasibətlər mərhələsində onların özlərini qeyri-adekvat aparmasının əsas səbəbidir”.

**Ekspertə görə, konfliktin uzanması Azərbaycanın işğal altındakı əraziləri ilə vidalaşması təhlükəsi yaradır:** “Ermənilər Qafqazda peyda olandan özlərinə sığınacaq tapa bilməyən bir xalqdır. Onlar gəlmədir və hamı bilir ki, burada nə vaxtdan kök salıblar. Onlar əvvəlcə Türkiyəyə meyl ediblər, daha sonra onu atıb Rusiyanın tərəfinə keçiblər. Bu, bir agentura millətidir. Onlara böyük dövlətlərin agenti olmaq xoş gəlir. Bu işdə təcrübələri var. Qarşılığında isə müəyyən siyasi dividentlərə malikdirlər. Onun hesabına da burada möhkəmləniblər”.

**R.Ağayevin fikrincə, bu gün Ermənistana güc yolu ilə təzyiq edilməlidir.** “Ya da beynəlxalq birliyin siyasi dəstəyinə bel bağlamaq lazımdır. Ancaq buna nail olmaq üçün biz daha aydın mövqeyə sahib olmalıyıq... Ermənilərlə nə haqda danışmaq olar, əgər onlar Azərbaycanın işğal altındakı ərazilərini qaytarmaq istəmirlərsə? Danışıqlar heç nəyə gətirməyəcək. Ermənilər sadəcə, vaxtı uzadır və əlverişli məqam gözləyirlər”, - deyə o, əminliklə qeyd edib və əlavə edib ki, informasiya və təbliğat planında Azərbaycanın qəti addımları çatmır: “Belə güclü maliyyə imkanlarına və beynəlxalq birliyin Azərbaycana xoşməramlı yanaşmasına malik ola-ola, biz daha effektli hərəkət edə bilərik”.

*****

Ermənistanın Qarabağ məsələsində dinc həll variantına hazır olmadığı bu günlərdə həm də işğalçı ölkənin müdafiə naziri David Tonoyanın yenidən Azərbaycanın işğal altındakı ərazilərində, bu dəfə Kəlbəcərdə peyda olmasından və separatçı rejim təmsilçiləri ilə növbəti təmaslarından görmək olar. Bu, həmin Toniyandər ki, iki ölkə rəhbərlərinin Vyana görüşündən dərhal sonra Azərbaycanı yeni ərazilərin işğalı ilə hədələmişdi. Bu dəfə isə o, Azərbaycan və Ermənistan XİN başçılarının Moskva görüşündən sonra ərazimizdə görünüb.

“Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı keçirilən görüşlərdən sonra Ermənistan rəhbərliyinə daxil olan şəxslərin Azərbaycanın işğal edilmiş ərazilərinə səfər etməsi ənənəvi haldır”. Bunu Tonoyanın Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini şərh edən **politoloq Elçin Mirzəbəyli** deyib (teleqraf.com).

**Ekspertin fikrincə, Ermənistan rəhbərliyi bu səfərlərlə işğal altındakı qondarma rejim və orada yaşayan insanlara onu aşılamağa çalışır ki, onlar üçün hansısa təhdid və təhlükə yaranmayacaq:** “Digər bir aspekt isə yenə də işğalçı rejim və onun separatçı tör-töküntüsünün Azərbaycanın hərbi əməliyyatlara başlaya biləcəyi və işğalçı qüvvəni geri oturdacağı ilə bağlı təhlükəni hiss etməsi və qorxusudur. Bu amil Tonoyan və ondan əvvəlki erməni rəsmilərinin Qarabağa səfərində özünü göstərir”.

**Politoloqa görə, bu səfərdə başqa bir amil separatçı rejim və onu himayə edən dairələrlə Ermənistanın indiki rəhbərliyi arasında yaranmış ziddiyyətlərdir.** “Son dövrlərdə bu ziddiyyətlər açıq formada nəzərə çarpır. Düşünürəm ki, Tonoyanın Qarabağa gəlişində bu amillər rol oynayır. Burada keçirilən görüşlərin mahiyyətində daha çox indiki şəraitdə Paşinyan hakimiyyətinin korporativ maraqlarını qoruması və separatçıların müəyyən qədər sakitləşdirilməsi faktoru dayanır”, - deyə o qeyd edib.

**Elçin Mirzəbəyli xatırladıb ki, bu səfərdən əvvəl həm separatçılar, həm də onları himayə edən dairələr, o cümlədən vaxtilə Serj Sərkisyan hakimiyyətinə daxil olan insanlar Ermənistanın indiki hakimiyyətinə qarşı ciddi ittihamlar səsləndirib:** “Bu səfər və burada keçirilən görüşlər müəyyən qədər ”Qarabağ klanı" qorxusuyla bağlıdır. Başqa sözlə, Tonoyanın Dağlıq Qarabağdakı görüşlərinin mahiyyətində bir neçə amilin dayandığını düşünürəm".

*****

Yaranmış durumda Azərbaycanın öz hərbi qüdrətini və ordusunun döyüş qabiliyyətini, bütövlükdə işğalçı ölkə üzərində əzici üstünlüyünü daha da artırması ikiqat önəm kəsb edir. Təqdiredicidir ki, bu yöndə qardaş Türkiyə ilə hərbi əməkdaşlıq ildən-ilə güclənməkdədir. İki ölkə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 3-dək Azərbaycanda keçirilməsi nəzərdə tutulan "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə döyüş atışlı birgə taktiki təlimi bunun növbəti təzahürü olacaq. Eyni zamanda işğalçı tərəfə, nəhayət, ağla gəlmək üçün daha bir ciddi xəbərdarlıq anlamı daşıyacaq. Ola bilsin, həm də sonuncu xəbərdarlıq anlamı...



## Rusiya Ermənistana təzə qırıcılar göndərir

**Rusiya Ermənistandakı aviabazasındakı bütün MiQ-29 qırıcılarını 4++ nəsil Su-30SM qırıcıları ilə əvəzləyəcək. Bu haqda Rusiya Müdafiə Nazirliyindəki mənbə TASS-a bildirib (Virtualaz.org).**

Məlumata əsasən, İrəvan yaxınlığındakı Erebuni aerodromunda dislokasiya olunan və 102-ci hərbi bazaya tabe olan 18 MiQ-29 qırıcıları yaxın zamanlarda iki mərhələdə Su-30SM qırıcıları ilə əvəzlənəcək. Təyyarələrin əvəzlənməsi ona görə iki mərhələdə baş verəcək ki, təyyarəçilər qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsini dayandırmasınlar və yeni nəsil qırıcılarda uçmağı öyrənsinlər.

Xatırladaq ki, bundan əvvəl Rusiyanın Ermənistana güzəştli qiymətə 4 Su-30SM qırıcısı satacağı məlum olmuşdu. Bu təyyarələr 2020-ci ildə Ermənistana çatdırılacaq. Ermənistan gələcəkdə daha 8 belə qırıcı almağı planlaşdırır.

**Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

## Qar uçqununa düşən ikinci hərbi qulluqçumuzun meyiti tapılıb

**Məlumat verildiyi kimi, mart ayının əvvəllərində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 2 hərbi qulluqçusu Daşkəsən rayonunda qar uçqununun baş verməsi nəticəsində itkin düşüb.**



Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ xilasedicilәri qrupu tərəfindən həyata keçirilən axtarış tədbirləri nəticəsində həmin hərbi qulluqçulardan ikincisi - əsgər Fərrux Fərman oğlu Məmmədovun meyiti dünən səhər saatlarında tapılaraq aidiyyəti üzrə təhvil verilib.

Xatırladaq ki, mart ayında Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində xidmət edən gizir Abdullayev Hafiz Məhəd oğlu və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Fərrux Fərman oğlu mövqe istiqamətində hərəkət edərkən qar uçqununa düşüblər.

Aparılan axtarışlar nəticəsində aprelin 14-də onlardan birinin - H.Abdullayevin meyiti tapılıb.



## Rusiyada 20 il əvvəl qətl törətmiş azərbaycanlı cinayətini etiraf edib

**Altay Diyarı Komitəsinin müstəntiqləri 20 il əvvəl adam öldürməkdə günahlandırılan azərbaycanlı barəsində olan cinayət işinin istintaqını tamamlayıb.**

Rusiya KİV-lərinin yazdığına görə, Rusiyanın regionlarından birinin ərazisində saxlanılmış azərbaycanlı cinayət işinin istintaqı zamanı günahkar olduğunu etiraf edib.

İstintaqın məlumatına görə, 1999-cu ildə Barnaul şəhərində yeni il gecəsində azərbaycanlı paltar satıcısı ilə mübahisə edib, ardından onu bıçaqlayaraq hadisə yerindən qaçıb. Sonradan satıcı ölüb, azərbaycanlı isə axtarışa verilib.

Amma o, Qazaxıstanda vətəndaşlıq əldə edərkən şəxsi məlumatlarını tamamilə dəyişib və bu səbəbdən sonradan Rusiyaya sərbəst səfər etmək imkanı qazanıb.

Təqsirləndirilən şəxsin cinayət törətdiyini etiraf etməsindən sonra tamamlanmış istintaq materialları açılmış cinayət işi çərçivəsində məhkəməyə göndəriləcək.

## İsmayıllıda söküntü zamanı 32 yaşlı fəhlə ölüb

**İsmayıllı rayonunda söküntü zamanı fəhlə ölüb. "Qafqazinfo"nun məlumatına görə, hadisə aprelin 22-də saat 17 radələrində rayonun M.F.Axundov küçəsində yerləşən yarıtikilidə baş verib.**

"Ziyalılar evi" kimi tikilməsi nəzərdə tutulan, lakin tikintisi yarımçıq qalan obyektin sökülməsi zamanı beton dirək aşaraq beton panellərin üzərinə düşüb. Bu zaman fəhlə, 1987-ci il təvəllüdlü Elnur Nurməmmədov ikinci mərtəbədən yıxılaraq beton panellərin arasında qalaraq ölüb.

Hadisə yerinə və meyitə baxış keçirilib, ilkin ifadələr alınıb, məhkəmə tibb ekspertizası təyin edilib. Faktla bağlı Cinayət Məcəlləsinin 222.3-cü (Tikinti təhlükəsizlik qaydalarını pozma; zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanılıb.

# Ölkədə quduz it müzakirələri: heyvansevərlər niyə insanı sevmirlər?

## BŞİH rəsmisi: "Aksiya keçirən heyvansevərlər bizimlə söhbətdə həmin iti yaralı uşaqdan üstün tuturdular"

**Paytaxt Bakıda sahibsiz küçə itlərinin sayı kütləvi şəkildə artmağa başlayıb. Artıq ciddi təhlükə, qorxu mənbəyinə çevrilən sahibsiz, aqressiv itlərin bəziləri mərkəzi küçələrdə, parklarda, bəziləri yaşayış massivlərində özlərinə məskən salıblar. Bundan isə şəhər sakinləri böyük narahatlıq keçirir.**



Çünki quduzlaşmış və yaxud aqressiv itlər daha çox azyaşlı, məktəb yaşda olan uşaqlara hücum edir. Elə bu günlərdə Bakının Sulutəpə qəsəbəsində 4 yaşlı Hüseyn Məmişov həyətdə həmyaşıdları ilə oynayarkən qəfildən quduz itin hücumuna məruz qalıb. Heyvan azyaşlı uşağın yanağını çox pis halda parçalayıb. Həkimlərin təcili müdaxiləsi sayəsində uşağın yanağının parçalanmış hissəsi tikilərək bərpa edilib. Uşağın atası Qismət Məmişovun report.az saytına verdiyi məlumata görə, it uşağa hücum edən anda o, şoka düşüb, it hərəkətsiz halda onu 3-4 metr sürüyüb. Yalnız qonşular qışqırdıqdan sonra it uşağı buraxıb qaçıb. Sonradan məlum olub ki, it quduz olub və hadisədən üç gün sonra ölüb. Qeyd edək ki, üzü parçalanmış uşağın fotosu sosial şəbəkələrdə yayılıb. Onun bu vəziyyəti ictimaiyyətdə böyük narahatlıq doğurub.



İsrafil Kərimov

Statistik məlumatlar da sahibsiz itlərin sakinlərə, uşaqlara hücumu faktlarının çoxaldığını bir daha sübut edir. Məlumata görə, təkcə bu ilin ilk 3 ayı ərzində Azərbaycanda 4909 nəfər heyvan zədəsi (cırmaqlama, dişləmə) ilə əlaqəli müvafiq tibb müəssisələrinə müraciət edib. Builki statistikaya görə, ölkədə hər gün orta hesabla 54 nəfəri it dişləyib.

Küçə itlərinin insanlara hücumundan söz düşəndə heyvan hüquq müdafiəçiləri itlərin aqressivliyini məhz sakinlərdə görür, onlarla münasibətin yaxşılaşdırılmasını tövsiyə edirlər. Heyvansevər aktivistlər itlərin küçələrdən yığışdırılmasının heyvan hüquqlarına zidd olduğunu, onların güllələnməsi və yaxud axtalanması təklifini qınayır, itlərin küçədə sərbəst gəzməsini tələb edirlər. Aprelin 22-də isə onlar Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında etiraz nümayişi keçiriblər. Bu barədə BBC məlumat yayıb.

Xatırladaq ki, ötən ilin oktyabr ayına qədər paytaxtdakı sahibsiz küçə itləri ilə bağlı Bakı şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin balansındakı, sahibsiz heyvanlarla mübarizəyə cavabdeh olan Sanitariya və Texniki Təmizlik İdarəsi məşğul olurdu. Lakin sonradan qurumun fəaliyyəti dayandırıldı. Əvəzində bu ilin 1 mart tarixində Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin birgə layihəsi ilə Sabunçu rayonunun Balaxanı qəsəbəsində sahibsiz itlərə sahib çıxan "Toplan" Sahibsiz İtlərə Qayğı Mərkəzi açılıb. Quruma gətirilən itlər tibbi müayinədən keçirilir, peyvəndlər vurulur, qısırlaşdırma və digər prosedurlar aparılır. Lakin bu işlər küçələrdəki sahibsiz itlərlə bağlı problemin həll olunmasına ciddi təsir göstərə bilmir. Üstəlik, itlərin sayı çox olduğundan onların hamısının qısırlaşdırılması da mümkün deyil.

Bəs kimi xilas edək - vəhşiləşmiş, aqressiv küçə itlərini, yoxsa özümüzü, uşaqlarımızı?

**Qeyd edək ki, Deputat Araz Əlizadə bu mövzu ilə bağlı mətbuata açıqlamasında bildirib ki, sahibsiz itlərin hamısı öldürülməlidir:** "Sahibsiz itləri öldürən adamlara qarşı cərimə tətbiqi düzgün deyil. Sovet dövründə də sahibsiz itlər öldürülürdü. Hətta bununla bağlı xüsusi idarə var idi. Sahibsiz itləri öldürmək lazımdır. Hər zaman sahibsiz itləri öldürüblər".

**Deputat Azərbaycanda sahibsiz itlərin qorunması məsələsinə isə bu cür münasibət bildirib:** "Ac uşaqlara çörək vermirlər, amma gedib sahibsiz itlərə milyonlar xərcləyirlər... Sahibsiz itləri camaatın gözü qabağında öldürmək də olmaz. Uşaqların psixologiyasına pis təsir edər. Yaxşı olar ki, sahibsiz itləri müəyyən olunan yerlərdə öldürsünlər".

Rəsmi qurumlar mövcud problemlə bağlı hansı tədbirləri görür və yaxud planlayır?

**Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Qurum kimi son məsələlərlə bağlı maraqlanır, izləyirik. Yəqin ki, məlumatınız var, aprelin 22-də heyvansevərlər icra hakimiyyətinin qarşısına gələrək etiraz etmişdilər. Biz onları qəbul etdik. Aktivistlərin öz tələbləri var idi. Əsas tələblərindən biri o idi ki, peyvənd edilən, müayinədən keçirilən itlər yenidən öz yerlərinə, şəhərin mərkəzinə buraxılsın. Bu gün Bakı şəhərində təxminən 500-600 min sahibsiz it var. Bu da çox böyük rəqəmdir. Ən qorxulusu isə budur ki, həmin itlərin böyük qismi xəstədir. Məlum olduğu kimi, uşağı dişləyən it quduz olub, belə ki, it 3 gündən sonra ölüb. Hazırda uşağın həyatda qalması üçün mübarizə aparılır, bu proses hələ 40 gün davam edəcək. Biz də bu məsələ ilə bağlı çox narahatıq. Heydər Əliyev Fondu da bu məsələ ilə yaxından maraqlanır. Şəxsən mən də bir valideyn kimi o uşağın üzü parçalanmış fotolarını gördükdə çox pis vəziyyətə düşdüm. Hər halda, o hadisə bizim və yaxınlarımızın uşaqlarının başına gələ bilərdi. O uşaq da bir ailənin övladıdır. İt təkcə onun üzünü parçalamayıb, həm də caynaqları ilə gözünə ağır xəsarət yetirib. Ən pisi isə itin quduz olmasıdır. Heyvansevərlər isə bizimlə söhbətdə təəssüfedici mövqedə idilər - həmin iti uşaqdan üstün tuturdular. Birbaşa ittiham edirdilər ki, itlə düzgün davranılmayıb, həm uşaq, həm də valideyn bu məsələdə günahkardır. Əlbəttə ki, bu cür mövqe qıcıq doğurur.

Hər kəsə məlumdur ki, Bakının Dənizkənarı Bulvarında, "Ağ Şəhər" bulvarında, mərkəzi parklarında, yol kənarlarında, qəsəbədaxili yollarda sahibsiz itlər sürü ilə gəzir. Bəziləri Avropa dövlətlərini misal göstərirlər. Avropa dövlətlərində sahibsiz itlərin sayı artanda dərhal tənzimləyirlər. Bu gün Bakı şəhəri üçün sahibsiz itlərin sayı həddən artıq çoxdur. "Toplan" Mərkəzi yeni fəaliyyətə başlayıb. Qurum əməkdaşları sahibsiz itləri küçələrdən toplayır, mərkəzə aparır, onları müayinədən keçirir, peyvənd edir, qulaqlarına birka vururlar. Bütün bu tədbirlər görüldükdən sonra həmin itlər şəhər mərkəzinə deyil, şəhərdən kənar yerlərə buraxılır. Həmin itlərin yenidən şəhər mərkəzinə gətirilib buraxılması nə dərəcədə doğru olardı? Çünki bu itlər istər-istəməz iaşə obyektlərinin, kafe və restoranların yaxınlığına, parklara gedir, ac olduğu üçün əlində yemək olan uşaqlara hücum edir. Bu baxımdan belə bir praktika var ki, itlər müayinədən, peyvənddən keçirildikdən sonra şəhər kənarlarına buraxılsın.

Lakin mərkəzin Bakıdakı 500-600 min sahibsiz iti dərhal götürüb aparması fiziki baxımdan mümkün deyil. Müəssisə növbətçilik əsasında şəhərin bütün qəsəbə və rayonlarında sahibsiz itlərin yığılması prosesini aparacaq.

İctimaiyyətdə sahibsiz itlərlə bağlı müxtəlif fikirlər, müzakirələr var. Məsələn, bir deputat sahibsiz küçə itlərinin öldürülməsini, digəri isə buna əks fikir bildirib. Şəxsən mənim fikrim bundan ibarətdir ki, Avropada olduğu kimi, bizim ölkədə də sahibsiz itlərin sayı tənzimlənməlidir".

**İ.Kərimov hələlik "Toplan" Mərkəzindən başqa sahibsiz itlərlə məşğul olan digər qurumun olmadığını bildirdi:** "Mərkəzdəki şərait ümid verir ki, bu problem tezliklə həllini tapacaq. Sahibsiz küçə itləri təkcə Bakıda deyil, regionlarda da ciddi problemə çevrilib. Son günlərdə rayonlarda bir neçə adamın it dişləməsindən dünyasını dəyişdiyi barədə informasiyalar yayılır. Bu baxımdan qanun çərçivəsində bu məsələnin həllinə çalışmalıyıq".

**Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

**Livan Hizbullah Hərəkatının Azərbaycanda da fəallığı var. Virtualaz.org RİA Novosti-yə istinadən bildirir ki, jurnalistlərə brifinq zamanı ABŞ Dövlət Departamentinin Terrorizmlə Mübarizə İdarəsinin koordinatoru Nathan Sayles açıqlama verib. Sayles deyib ki, Hizbullahın təsir dairəsi Yaxın Şərqlə məhdudlaşmır, onların nümayəndələri bir sıra dövlətlərdə fəallıq göstərirlər. Məsələn, şəbəkənin nümayəndələri Azərbaycanda aşkar edilib.**



# Vaşinqtonun hədəfindəki Hizbullah...

## ABŞ Hizbullahın maliyyə şəbəkəsini çökdürmək üçün lazım olan məlumatları verən şəxs və qurumlara 10 milyon dollar mükafat vəd edib

BBC-nin məlumatına görə, aprelin 22-də ABŞ maliyyə nazirinin terrorçuluğun maliyyələşməsi ilə mübarizəyə cavabdeh müavini Marşal Billinqsli bəyan edib ki, Hizbullahın maliyyə şəbəkəsini çökdürmək üçün lazım olan məlumatları verən şəxs və qurumlara 10 milyon dollar mükafat veriləcək. Bu qərar Dövlət Departamentinin "Ədalət üçün mükafat" proqramı çərçivəsində müəyyən olunub. Məqsəd Yaxın Şərqin ən böyük hərbi-siyasi təşkilatının maliyyə qaynaqlarını sıradan çıxarmaqdır.

ABŞ hökuməti Hizbullaha qarşı bir sıra addımlar atıb. Ötən ilin oktyabrında Livanda 241 amerikalı əsgərin öldürülməsi ilə bağlı keçirilən tədbirlər proqramı çərçivəsində prezident Tramp "Hizbullahın Beynəlxalq Maliyyə Qaynağının Əngəllənməsi Qanununa Dəyişiklik" adı ilə yeni qanun imzalayıb. Ağ Ev bu qanunun Hizbullahın beynəlxalq arenada təklənməsi, eləcə də bu qruplaşmaya dəstək verən şəxslər və təşkilatların, eləcə də hökumətlərin hədəfə alınacağını bəyan edib.

Xatırladaq ki, 1983-cü ildə Livanın paytaxtı Beyrutda ABŞ səfirliyi və hərbi qarnizonunun partladılması nəticəsində 241 amerikalı dəniz piyadası öldürülüb. Bu hücumun Hizbullah tərəfindən həyata keçirildiyi təsdiqlənib.

ABŞ hökuməti Hizbullahın regionda siyasi rolunun və nüfuzunun artmasından narahatdır. Məsələ ondadır ki, Hizbullah 2013-cü ildə Suriyada hərbi münaqişəyə qoşulandan sonra müharibənin taleyi Bəşər Əsədin xeyrinə dəyişib. Bundan başqa, Hizbullah Livanda İsrailə qarşı, eləcə də İraqda, Yəməndə eyni adlı islamçı silahlı qrupların təlim keçməsində ciddi rola malikdir.

ABŞ hökuməti Hizbullahı 1987-ci ildə "xarici terror təşkilatları siyahısı"na daxil edib. ABŞ-ın Hizbullahla münaqişəsinin arxasında Livanda 1982-ci ildən sonra baş verən hadisələrlə yanaşı qruplaşmanın İranla əlaqələri və İrandan dəstək alması faktoru da var. Qeyd edək ki, Azərbaycanda Hizbullah fəaliyyəti haqda bir neçə dəfə müxtəlif vaxtlarda məlumat yayılıb. Birinci dəfə 1997-ci ildə Bakıda qətlə yetirilən akademik Ziya Bünyadovun işində Hizbullahın adı hallanıb. Mətbuatda gedən məlumatlarda qətlin Hizbullah şəbəkəsi tərəfindən törədildiyi iddia olunurdu.

İkinci dəfə Hizbullahın adı Azərbaycanda İsrail səfirliyinə terror hücumu planlaşdırılması ilə bağlı çəkilib. 2008-ci ildə Azərbaycan təhlükəsizlik orqanları bir neçə Azərbaycan vətəndaşını və iki Livan vətəndaşını həbs edib. Sonrakı illərdə Hizbullahın Azərbaycanla əlaqələri və ya buradakı fəaliyyətləri ilə bağlı hər hansı məlumat və ya iddia mediaya yol tapmayıb.

Qeyd edək ki, Livanda əsas hərbi-siyasi təşkilatlardan biri olan Hizbullah hazırda 128 nəfərlik Livan parlamentində 12 deputat yeri ilə təmsil olunur. Bundan başqa, Livan Mili Barışıq hökumətində 30 nəfərlik Nazirlər Kabinetində Hizbullah 2 nazir portfeli ilə təmsil olunur. Ancaq təbii ki, dünyada Hizbullah siyasi hərəkatdan daha çox hərbi güc kimi tanınır. Ümumiyyətlə, Hizbullahın silahlı gücü və təcrübəsi Yaxın Şərqdə ən güclülər sırasında gəlir. Hətta 2014-cü ildə İsrail ordusunun baş qərargah rəisi Qantz Hizbullahın dünyanın ən güclü 7-ci ordusuna çevrildiyini bildirmişdi.

Hizbullah (ərəbcədə - Allahın partiyası) 1982-ci ildə İsrailin Beyrutu işğal etdiyi dövrdə yaranıb. Bir qrup şiə müqavimətçi tərəfindən yaradılıb.

Hizbullahın yarandığı gündən bu yana 3 rəhbəri olub. Birinci baş katib Şeyx Raqib Hərb, ikinci lideri Seyid Abbas Musəvi olub. Hərəkatın sayca üçüncü lideri Seyid Həsən Nəsrullahdır. 1960-cı il təvəllüdlü Seyid Həsən Nəsrullah ilahiyyatçıdır. Livanda, Nəcəfdə və qısa müddətdə İranda dini təhsil alıb. 1992-ci ildə Seyid Abbas Musəvinin öldürülməsindən sonra Hizbullahın baş katibi seçilib. 1997-ci ildə 17 yaşlı oğlu Hadi Nəsrullah İsrail ordusu ilə toqquşmada öldürülüb.

İran tərəfindən maliyyə və silah alan Hizbullahın hazırda 150 min (2006-cı ildə 33 min - K.R.) raketinin olduğu və raketlərin böyük qisminin İsrail ərazisini vurmağa qadir olduğu bildirilir. Bunların arasında 45 km məsafəyə uçan Fəcr-4, 75 km məsafəli Fəcr-5 və 200 km məsafəyə uça bilən "Zelzal-2" raketləri var. Bu raketlərin əksəriyyəti İran istehsalıdır. Ancaq indi bu silahlar Suriya və Livan ərazisində istehsal olunur. Bundan başqa, 2006-cı il savaşında Hizbullah İsrailin Livan sahillərində reyd keçirən döyüş gəmisini C-802 tipli Çin istehsallı raketlə vurdu. Eləcə də İsrailin ağır "Merkava" tanklarını Rusiya istehsallı müasir raket əleyhinə sistemlərlə vurması Hizbullahın yalnız İran silahları deyil, eləcə də Rusiya və Çindən də silahlar aldığını sübut edir. Bəzi mənbələrə görə, hazırda Hizbullahın yüksək peşəkarlığa və döyüş təcrübəsinə sahib 20 min döyüşçüsü var. Ancaq bu barədə dəqiq rəqəm demək çətindir.

Silahlı qüvvələrlə yanaşı, Livanda Hizbullahın 8 xəstəxanası, 24 klinikası, 32 məktəb və digər yardım fondları, ictimai və sosial quruluşları var. Hazırda Hizbullaha İranla yanaşı, Avropa, Latın Amerikası ölkələrindən də maliyyə dəstəyi var. Təşkilatın Latın Amerikası, Afrikada bir sıra ölkələrlə, o cümlədən Rusiya ilə əlaqələri var.

Hizbullah üzvləri Afrika qitəsində bahalı metalların ticarətində, həmçinin Latın Amerikasının bir sıra ölkələrində ticarət fəaliyyətləri var. Maraqlıdır ki, Afrikada Hizbullah israilli iş adamları ilə rəqabət aparır.

Qərb ölkələri - ABŞ, Kanada, İsrail, Avstraliya, Səudiyyə Ərəbistanı kimi bir sıra ölkələr Hizbullahı terrorçu təşkilat kimi tanıyır. 1983-cü ildə Hizbullah silahlıları ABŞ-ın Beyrutdakı səfirliyinə hücum edib. Bu zaman, 17-si ABŞ vətəndaşı olmaqla, 63 nəfər ölüb. Yenə həmin il Beyrutdakı ABŞ Hərbi Dəniz piyadalarının bazasına hücum təşkil edən Hizbullah silahlıları 241 amerikalı əsgərin ölümünə səbəb olub. ABŞ Hizbullah liderlərinə və təşkilata yardım edən qurumlara sanksiyalar təşkil edir.

İndi isə Vaşinqton Hizbullahın məhz maliyyə kanallarını bağlamaq, bununla da təşkilatın gücünü və imkanlarını məhdudlaşdırmaq istəyir. Görünür, Vaşinqton Hizbullahın ciddi maliyyə şəbəkəsinin olduğu haqda məlumat əldə edib və indi bunun qarşısını almağa çalışır. Lakin bu siyahıda Azərbaycanın adının çəkilməsi çox maraqlıdır.

**Siyasi şərhçi Elxan Şahinoğlu amerikalıların ehtimalını əsaslı hesab etmir. E.Şahinoğlunun fikrincə, hazırda Hizbullahın Azərbaycanda fəaliyyətinin olması ilə bağlı məlumatların ciddi əsasları yoxdur.**

**Sitat:** "Əvvəllər Hizbullahın Azərbaycandakı fəaliyyətlərinə dair müəyyən məlumatlar olurdu. Hətta hansısa azərbaycanlıların Hizbullah düşərgələrində təlim keçməsi ilə bağlı iddialar da vardı. Lakin indi inanmıram ki, Hizbullahın Azərbaycanda geniş fəaliyyəti mümkün olsun. Çünki bu, İran-Azərbaycan münasibətlərinə mənfi təsir edə bilər. İran hakimiyyəti özü də indi istəməz ki, Azərbaycanla münasibətləri pozulsun. Amerikanın sanksiyalarından əziyyət çəkən İranın qonşuları ilə yaxşı münasibətlərə ehtiyacı var. Yəqin ki, amerikalılar köhnə məlumatlar əsasında Azərbaycanın da adını bu siyahıya salırlar. Bu açıqlamada bir hiyləgər gediş bundan ibarətdir ki, Amerika İranla qonşu ölkələr üçün Hizbullah təhlükəsinin olduğunu göstərməyə çalışır. Amerikanın bu tip hesabatları çox olur, amma bu o demək deyil ki, bütün hesablar tam həqiqətdir".

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# İŞİD Şri-Lankadakı partlayışlara görə məsuliyyəti üzərinə götürdü



**İŞİD terror qruplaşması Şri-Lankada aprelin 21-də törədilmiş silsilə partlayışlara görə məsuliyyəti üzərinə götürüb.**

Məlumatı "Reuters" agentliyi yayıb.

Xatırladaq ki, aprelin 21-də Pasxa bayramı zamanı Şri-Lankada törədilən silsilə partlayışlar nəticəsində azı 321 nəfər ölüb, 500-dən çox insan isə yaralanıb.

# Ermənistanda dizenteriya epidemiyası yayıldı

**Ermənistanın Azərbaycanla sərhəddə yerləşən Tavuş rayonunda dizenteriya epidemiyası yayılıb. Bu ölkənin Səhiyyə Nazirliyinin məlumatına görə, əksəriyyəti uşaqlar olmaqla, onlarla insan xəstəxanalara yerləşdirilib.**

AzərTAc xəbər verir ki, bağırsaq infeksiyası Navur kəndindən yayılmağa başlayıb. Burada 30 nəfəri, o cümlədən 24 azyaşlını dizenteriya diaqnozu ilə xəstəxanaya çatdırıblar. Onlarda dizenteriyanın törədicisi olan Zonne amöbü aşkar olunub. Rayonun məktəb və uşaq bağçaları nəzarətə götürülüb, xəstələrin evləri dezinfeksiya edilib. Bundan başqa, əhalinin istifadə etdiyi suyun analizi aparılır. Analizlərin nəticələri məlum olanadək su kəməri ilə içməli suyun verilməsi dayandırılıb.

# Saakaşvili geri çəkilmək fikrində deyil



**Ukrayna Dövlət Sərhəd Xidmətinin mətbuat xidməti Mixail Saakaşvilinin Ukraynaya gəlişi üçün heç bir qanuni əsas olmadığı barədə bəyanat yayıb.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bəyanatda deyilir: "Həmin şəxs 2017-ci ilin sentyabr ayında qanunsuz şəkildə Polşadan Ukrayna sərhədinə keçib. Yerli və apelyasiya məhkəmələrinin çıxardığı qərarlar da bu faktı təsdiq edir".

Xidmətdən bildiriblər ki, yuxarıda qeyd olunan qanun pozuntusu ilə əlaqədar Saakaşvilinin Ukraynaya girişinə 2021-ci ilə kimi məhdudiyyət qoyulub.

M.Saakaşvili buna öz facebook səhifəsində reaksiya verib. O, geri çəkilmək fikrində olmadığını və gözləməyə hazır olduğunu bildirib.

"Poroşenkonun prezident vəzifəsində olduğu müddətdə Dövlət Sərhəd Xidmətindən başqa cavab gözləmirdim. Eybi yox, aylardır gözləyirəm, bir az da səbr edərəm", - deyə o yazıb.

Xatırladaq ki, Gürcüstanın keçmiş prezidenti və Odessanın sabiq qubernatoru M.Saakaşvili 2013-cü ildə Gürcüstanı tərk edib. Ölkəsində ona qarşı bir sıra cinayət işləri açılıb. Bəzi işlər üzrə qiyabi olaraq həbs cəzalarına məhkum edilib.

2015-ci ildə Ukraynadakı siyasi proseslərə qoşulub. Odessa vilayətinin qubernatoru olub. Ancaq cəmi bir il sonra, 2016-cı ildə tutduğu vəzifədən azad edilib. 2017-ci ilin iyul ayında isə Saakaşvili Ukrayna vətəndaşlığından məhrum olunub.

# Nazarbayev prezidentliyə Tokayevin namizədliyini irəli sürüb

**Qazaxıstanın ilk prezidenti, "Nur Otan" Partiyasının sədri Nursultan Nazarbayev iyunun 9-da ölkədə keçiriləcək prezident seçkilərində iqtidar partiyasından Kasım-Jomart Tokayevin namizədliyinin irəli sürülməsini təklif edib. Bu barədə TASS məlumat verib.**

"Kasım-Jomart Tokayevin Qazaxıstan Respublikasının prezidenti vəzifəsinə namizədliyinin irəli sürülməsi məsələsini qurultayın müzakirəsinə çıxarıram", - N.Nazarbayev "Nur Otan" Partiyasının 19-cu növbədənkənar qurultayında bildirib.

O, uzun illər birgə işlədiyi Tokayevi yaxşı tanıdığını, onu bugünkü gündə ən layiqli namizəd hesab etdiyini vurğulayıb.

Xatırladaq ki, Qazaxıstanda növbədənkənar prezident seçkiləri bu il iyunun 9-da keçiriləcək.

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

# Qaz və enerji limitinin ləğvi gündəmdə - araşdırma

## Vüqar Bayramov: "Bu, sosial baxımdan zəruridir"

**Azərbaycanda əhalinin istehlak etdiyi təbii qaz və elektrik enerjisinə tətbiq olunan limitin aradan qaldırılması məsələsinin müzakirəsi davam edir. Bu məsələ parlamentin ötən gün keçirilən iclasında da qaldırılıb.**



Əhalinin mütləq əksəriyyəti bu limitin götürülməsini, qazın və elektrik enerjisinin bütün həcminin əvvəlki qiymətlə satılmasını tələb edir.

### Dövlət enerji və qaz istehsalına dəstək verir

Məlum olduğu kimi, əhali üçün qaz və elektrik enerjisi istehlakına limitin tətbiq olunması qərarı Tarif Şurası tərəfindən 2016-cı ilin noyabrında qəbul edilib. Bu qərarla əhali istehlakçı qrupu illik 1700 kubmetrə qədər qaza görə hər 1000 kubmetr üçün 100 manat, ondan yuxarı həcm üçünsə ikiqat artıq pul ödəyir. Elektrik enerjisində limit aylıq tətbiq olunub - ayda 300 kVt/saata qədər enerjini əhali 7 qəpikdən, ondan yuxarını isə 11 qəpikdən alır.

Tarif Şurası bu qərarı verdiyi ərəfə ölkə iqtisadiyyatının çətinliklərlə üzləşdiyi dövr idi: neftin dünya bazar qiyməti aşağı düşmüşdü, ölkədə iki ardıcıl devalvasiya baş vermişdi. Dövlət və ölkənin yeganə qaz təminatçısı SOCAR ciddi maliyyə problemləri ilə üz-üzəydi. Eyni zamanda ölkədə qaz istehsalı xarici tərəfdaşlarla bağlanmış müqavilələri və daxili bazarı eyni vaxtda tam təmin etməyə imkan vermirdi. Buna görə də hökumət məcbur olaraq daxili tələbatı ödəmək üçün Rusiyanın "Qazprom" şirkətindən qaz almağa başladı.

Qeyd etdiyimiz kimi, neft bazarında qiymətlərin düşməsi bütün neft şirkətlərində olduğu kimi, SOCAR-da da müəyyən çətinliklər yaratmışdı. Buna görə də Azərbaycan dövləti Rusiyadan alınaraq enerji istehsalı müəssisələrinə ucuz verilən qazın qiymət fərqindən dolayı yaranan zərəri özü qarşıladı. 2018-ci ildə dövlət büdcəsindən bu zərəri qarşılamaq üçün SOCAR-a 300 milyon manat ayrılıb. Eyni zamanda dövlət SOCAR-a qaz istehsalını artırmaq üçün maliyyə dəstəyi verməyə başlayıb. Ötən il dövlət büdcəsindən "Ümid", "Babək" və "Qarabağ" yataqlarında quyuların qazılması üçün şirkətə 663,2 milyon manat vəsait ayırıb.

Dövlətin milli neft şirkətinə daha bir dəstəyi "Şahdəniz" yatağından hasil edilən mənfəət qazının daxili tələbatı qarşılamaq üçün SOCAR-a verilməsidir. Dövlət Neft Fondunun illik hesabatlarından aydın olur ki, 2016-cı ildə 135 milyon dollarlıq, 2017-ci ildə isə 227,2 milyon dollarlıq mənfəət qazı bu məqsədlə pulsuz olaraq milli neft şirkətinə verilib. Bundan əlavə, ölkənin təbii qaz təchizatı səviyyəsinin artırılması üçün də dövlət SOCAR-a maliyyə dəstəyi göstərir.

Dövlət həmçinin elektrik enerjisi istehsalı, paylanması və çatdırılmasına da ciddi dəstək verir - həm dövlət büdcəsindən vəsaitlər ayrılır, həm xaricdən alınan böyük həcmli kreditlərə dövlət zəmanəti verilir. Ötən ilin iyulunda Azərbaycanın enerji sistemində baş verən böyük qəzadan sonra enerji təchizatı sistemində irihəcmli işlərin görülməsinə başlanıb. Qəzadan sonra yaradılmış dövlət komissiyası Energetika Nazirliyinin dəstəyi və xarici mütəxəssislərin iştirakı ilə xüsusi reabilitasiya proqramı hazırlanıb. Üç illik dövrü əhatə edən proqramın maliyyə tutumu açıqlanmasa da, onun nəzərdə tutduğu tədbirlərin həyata keçirilməsi üçün ötən il ərzində "Azərenerji" ASC-yə 140 milyon manat vəsait ayrılıb. Bundan əlavə, enerji istehsalı müəssisələrinə qazın hər 1000 kubmetri 120 manata satılır. Ötən il dövlət xaricdən alınaraq bu müəssisələrə ucuz qiymətə verilən qaza görə SOCAR-a 300 milyon manat əlavə vəsait ayırıb.

Bütün bunlar göstərir ki, 2016-cı ildə Azərbaycanda qaz istehsalının həcmi, dünya neft bazarındakı qiymətlər fonunda yaranmış situasiyada əhaliyə satılan qazın və elektrik enerjisinin qiymətində artım edilməsi, limitin tətbiq olunması hardasa başadüşüləndir. Amma limitin tətbiqindən ötən müddət ərzində şərtlər ciddi şəkildə dəyişib. Əvvəla, dünya bazarında neftin qiyməti yüksəlib, bu isə ölkənin maliyyə durumunu kifayət qədər yüksəldib. İkinci tərəfdən, Azərbaycanda qaz istehsalı artıb. Bu artım əsasən "Şahdəniz 2" layihəsi çərçivəsində hasilata başlanması ilə əlaqədardır. Energetika naziri Pərviz Şahbazovun bu günlərdə verdiyi məlumata görə, cari ilin yanvar-mart aylarında ölkədə ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,1 faiz çox, yəni 9,1 milyard kubmetr qaz hasil edilib.Hasil edilən qazın 4,3 milyard kubmetri "Şahdəniz" yatağının payına düşür. İlk rübdə ümumilikdə, Azərbaycandan ötən ilin müvafiq dövründən 26,6 faiz çox - 3,2 milyard kubmetr qaz ixrac edilib.

Qaz istehsalının artması nəticəsində artıq Azərbaycanın kənardan qaz almasına ehtiyac qalmayıb, buna görə də "Qazprom"la imzalanan müqavilənin müddəti uzadılmayıb.

Bundan əlavə, limit tətbiq olunduqdan sonra rayonlarda əhali yenidən odun arxasınca meşələrə üz tutmağa başlayıb. Nəticədə 2016-cı ildə ölkədə yanacaq kimi odun istehlakı 23 min ton idisə, 2017-ci ildə bu, 26,4 min tona yüksəlib. Bu, rəsmi qeydiyyata alınan istehlakdır. Aydın məsələdir ki, kəndlərdə əhalinin meşədən gətirdiyi odunun böyük hissəsi uçotdan yayındırılır.

### Əhalinin qaz və enerji istehlakı nə qədərdir

Ölkənin yanacaq-enerji balansına nəzər yetirdikdə görmək olur ki, Azərbaycanda əhalinin (ev təsərrüfatlarının) illik qaz istehlakı aşağı-yuxarı 2,7-3 milyard kubmetr aralığında dəyişir. Son 10 ildə ən yüksək istehlak limitin tətbiq olunduğu 2016-cı ildə qeydə alınıb - 3 milyard 186,9 milyon kubmetr. 2017-ci ildə bu həcm 2 milyard 826,5 milyon kubmetrə düşüb. 2018-ci il üzrə məlumat açıqlanmasa da, istehlakda ciddi artımın olması gözlənilən deyil.

Əhalinin illik elektrik enerjisi istehlakı isə 5-8 milyard kVt\saat ətrafındadır. Burada da son 5 ildə ən yüksək istehlak - 8 milyard 71,5 milyon kVt\saat limitin tətbiq olunduğu 2016-cı ildə qeydə alınıb. 2017-ci ilə ev təsərrüfatları tərəfindən istehlak olunan elektrik enerjisi 7 milyard 134,6 milyon kVt\saata düşüb.

### Əhaliyə tətbiq olunan limitin ləğvi üçün imkanlar varmı?

Məlum olduğu kimi, "Azəri-Çıraq-Günəşli" yatağından hasil olunan səmt qazının bir hissəsi pulsuz olaraq Azərbaycan dövlətinə verilir. Bp şirkətinin açıqladığı məlumatdan aydın olur ki, 2018-ci ildə AÇG-dən dövləti təmsil edən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6,4 milyon kubmetr, ümumilikdə isə 2,3 milyard kubmetr səmt qazı verilib. 2017-ci ildə verilən səmt qazının həcmi elə əhalinin istehlak etdiyi qədər olub - 2,9 milyard kubmetr.

Əlbəttə, səmt qazının dövlətə pulsuz verilməsi onun tamamilə pulsuz başa gəlməsi anlamını vermir. Belə ki, SOCAR-ın açıqladığı məlumata görə, 2017-ci ildə şirkət üzrə qazın emalı, saxlanması, nəqli və təchizatı ilə bağlı cəmi xərclər 1000 kubmetr üçün 47,95 manat təşkil edib. Ümumilikdə isə həmin il SOCAR tərəfindən daxili bazarda satışa buraxılan təbii qazın orta maya dəyəri 121,88 manat səviyyəsində proqnozlaşdırılıb. Bu rəqəmlərdən aydın olur ki, AÇG yatağından pulsuz verilən səmt qazının əhaliyə hər 1000 kubmetri 100 manata satılması dövlətin çəkdiyi emal, saxlanma, nəql və təchizat xərclərinin ikiqat qarşılanması deməkdir. Yəni dövlət bu addımdan zərər çəkməyəcək.

Düzdür, inkişaf etmiş ölkələrdə hansısa istehlakçı qrupuna qazın və ya elektrik enerjisinin qiymətində ciddi güzəştlərin edilməsi təcrübəsinə çox az rast gəlinir. Lakin bu ölkələrdə əhali təbii qazdan demək olar ki, istifadə etmir - həm çoxmərtəbəli yaşayış binaları, həm də fərdi evlər mərkəzləşmiş istilik sistemi ilə təchiz olunub. Yəni vətəndaş qaza görə deyil, aldığı istiliyə görə ödəniş edir. Azərbaycanda isə istilik sistemi ilə təchizat çoxmərtəbəli yaşayış binalarında belə cüzi bir hissəni əhatə edir. Fərdi evlərin hamısı istiliyi qazla təmin edir ki, bu da istehlakı artırır. Bu, eyni zamanda insanların qaza görə xərclərinin də ailə büdcəsində mühüm paya malik olmasına gətirib çıxarır.

Nəhayət, nəzərə almaq lazımdır ki, prezident İlham Əliyev Azərbaycanda yüksək iqtisadi inkişafa əsaslanan sosial dövlət modelinin qurulmasına başlandığını elan edib. Bu dövlətdə ümumi qaz və enerji istehlakında 25-30 faiz paya malik əhali istehlakçı qrupundan bazar gəliri səviyyəsində gəlir götürməmək üçün yetərincə imkanlar mövcuddur.

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun "Yeni Müsavat"a dediyinə görə, kommunal xidmətlərə görə əhaliyə tətbiq olunan limitin aradan qaldırılması mümkündür:** "Nəzərə alaq ki, limitlər böyük deyil. Bu üzdən vətəndaşlar qısa bir müddətdə ondan istifadə edir və bundan sonra aldıqları qaz və enerjiyə görə yüksək qiymət ödəməli olurlar. Bu isə onların ailə büdcəsində xərclərin ciddi artmasına gətirib çıxarır. Hesab edirəm ki, əhalinin xüsusilə də mavi qazla təchizatında limitin aradan qaldırılması üçün imkanlar var. Buna ilk növbədə Azərbaycanda mavi qaz istehsalının artması şərait yaradır. Digər tərəfdən, manatın məzənnəsi 2017-ci ilin fevralından bəri sabitdir. Bu, "Şahdəniz" yatağı üzrə konsorsiumdan qaz alınmasında məzənnə fərqinin yaranmaması deməkdir".

**Ekspertin fikrincə, limitlərin götürülməsi sosial baxımından da vacibdir:** "Bu, azgəlirli vətəndaşlarımızın xərclərini azaltmaqla onların sosial təminatına bir töhfə olacaq. Reallıq bundan ibarətdir ki, bu gün vətəndaşların xeyli hissəsi fərdi evlərdə yaşayır, evlərini kombi və digər qızdırıcılarla qızdırır. Mövcud limitlər onların xərcini xeyli artırır. Buna görə də limitlərin aradan qaldırılması həm də sosial baxımdan pozitiv addım ola bilər. Düşünürəm ki, mövcud iqtisadi-sosial şərtlər daxilində bu limitlərin götürülməsi mümkün və zəruridir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

**Elan**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Abdullayev Rüstəm Bəhruz oğluna verdiyi Sİ-84 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 87 (7257) 24 aprel 2019

# Dünya siyasətçilərinin bir-birindən qəribə fobiyaları

## Onlar dünyanı idarə edir, qorxuları isə onları...

**Şimali Koreya lideri Kim Çen In bir neçə ay öncə ABŞ prezidenti Donald Trampla görüşmək üçün Vyetnama getmişdi. Həmin vaxt o, bu görüşdə nəqliyyat vasitəsi olaraq zirehli qatar seçmişdi. Xəbərlərdə də qeyd olunmuşdu ki, Şimali Koreya rəhbəri görüşün keçiriləcəyi Hanoy şəhərinə getmək üçün yoluna avtomobil korteci ilə davam edəcək. Onun məhz bu nəqliyyat vasitəsini seçməsi isə təyyarə fobiyası ilə bağlı idi.**

"Yeni Müsavat" bu informasiyadan çıxış edərək, dünya şöhrətli siyasətçilərin fobiyaları (qorxuları) ilə bağlı arayış hazırlayıb.

**Corc Vaşinqton diri-diri basdırılmaqdan qorxurdu**

Amerika Birləşmiş Ştatlarının birinci prezidenti Corc Vaşinqtonun ən böyük qorxusu ölümü tam təsdiqlənməmiş basdırılma ehtimalı olub. Ona görə də o, öz dəfni barədə çox düşünürdü və vəsiyyətində də bu məqam yer alırdı. Vəsiyyətində yazılmışdı ki, qulluqçuları onun ölümünə tam əmin olandan sonra dəfn prosedurları başlansın. Həmin vaxt bu, prezident barəsində ən geniş yayılmış fobiya idi və üstəlik, çox anlaşılan idi. Çünki sözügedən illərdə tibb o qədər də yüksək səviyyədə inkişaf etməmişdi və ciddi tibbi xətalara yol verilməsi ehtimalı da yüksək idi. Həkimlər olduqca tez-tez yanılırdılar və onların səhvi ucbatından sağ insanlar məzarda gözlərini açırdılar.

**Napoleon Bonapart pişiklərdən qorxurmuş**

Bütün dünyanı özünə ram etməyi hədəf seçən Napoleonun olduqca gülməli və qeyri-adi bir qorxusu vardı. Bu da pişiklərdən qorxu idi. Pişik görən kimi fransalı imperator düşünmək, hərəkət etmək qabiliyyətini itirir və izahedilməz bir panikaya düşürdü.

**Böyük Pyotr sürünən görən kimi....**

Rusiyanın nəhəng və eyni zamanda qorxunc birinci imperatoru Böyük Pyotr isə tarakan və ya hər hansı həşərat görəndə balaca uşaq kimi qorxudan əsməyə başlayırdı. Ümumən bütün həşəratlar və sürünənlər onun həyatını dözülməz etmək üçün yetərli idi. İmperatorun daha bir qəribə fobiyası o idi i, o, açıq yerlərdən və hündür məkanlardan qorxurdu. Ölkə xaricində olanda böyük saraylardan qaçırdı. Rusiyada isə kiçik və rahat məkanları tərcih edirdi.

**Qəddafinin 35-ci mərtəbə qorxusu**

Sabiq liviyalı diktator Muammer Qəddafinin uzun təyyarə, gəmi səfərləri qarşısında qorxusu hamını təəccübləndirirdi. Qəddafi 8 saatlıq okean üzərindən uçuşa tab gətirə bilmirdi. Ona görə də personalı alternativ marşrutlar düşünmək zorunda qalır və öz şeflərini bütün vasitələrlə sakitləşdirməyə cəhd göstərirdilər. Bundan başqa, Qəddafi 35 mərtəbədən yuxarı qalxa bilmirdi. Əgər çox vacib danışıqlar belə hündürlükdə aparılmalı olurdusa, onu, sadəcə, ləğv edirdilər.



Kim Çen In



Angela Merkel



Muammer Qəddafi

**O boyda Çörçile danışmaqdan qorxurdu**

Vinston Çörçili dünya Böyük Britaniyanın əzəmətli baş naziri kimi tanıyırdı. Amma o, geniş publika qarşısında çıxış etməkdən və kəkələməkdən qorxurdu. Bu da artıq fobiya həddinə çatmışdı. 29 yaşında ilk dəfə parlamentə seçiləndə Palata qarşısında çıxış etməli idi. Amma o, çıxış etmək əvəzinə, sadəcə, dəhşət içində susaraq, publika qarşısında dayanmışdı. Daha sonra isə oturmuş və panika içində əlləri ilə üzünü qapamışdı. O, sonralar bu qorxusunu bütün çıxışlarını öncədən hazırlayıb, əzbərləməklə kompensasiya edirdi.

**Hitlerin stomotoloq fobiyası**

Tarixin ən qəddar və qorxunc liderlərindən olan Adolf Hitlerin də öz miqyasında qorxuları vardı. O, stomatoloq yanına getməyi ömrünün ən faciəvi hadisələrindən hesab edirdi. Hətta profilaktika məqsədilə diş həkiminin yanına getməyi də həyatının əzabına çevirmişdi. Məhz bu qorxusuna, dişində yaranan problemləri həll etmədiyinə görə fürerin ağzından çox bərbad qoxu gəlirdi.

**Nikson xəstəxanalardan elə qorxurdu ki...**

Amerikanın 34-cü prezidenti Riçard Nikson xəstəxanalar qarşısındakı panikasını heç nə ilə dəf edə bilmirdi. O, əmin idi ki, nə zamansa xəstəxanaya düşsə, oradan sağ çıxa bilməyəcək. 1974-cü ildə o, trombozdan əziyyət çəksə də, müalicə olunmaqdan imtina etdi. Həkimlər o vaxt ona dedilər ki, söhbət həyat və ölümdən gedir. Ona xəbərdarlıq edildi ki, prosedurlardan imtina etsə, ölümü dəqiqdir. Məhz bu xəbərdarlıq onun sözügedən fobiyasını azaltmağa səbəb oldu. Çünki o, ölümdən daha çox qorxurdu, nəinki xəstəxanalardan.

**Merkel itlərdən çox qorxur**

Almaniyanın kansleri Angela Merkelin it qorxusu dillərə dastandır. Onu bu dünyada qorxudan dəhşətə gətirən yeganə şey itlərdir. Bu barədə özü 2012-ci ildə verdiyi müsahibəsində bildirib. Hər şey 1995-ci ildə qonşusuna ov itinin hücum etməsi ilə başlanıb. Onun fobiyasının sərhədləri o qədər böyüyüb ki, xaricə səfər zamanı hər zaman təhlükəsizlik xidməti bu nüansa diqqət yetirir. Çalışırlar ki, kanslerin gəlişi münasibətilə yaxınlarda bir dənə də olsun it olmasın.

**İnsanlar yağışdan da qorxur, düymədən də, tərəvəzdən də...**

Amma tibb dərsliklərində qorxularla bağlı xeyli material var. Onlardan bir neçəsini nəzərinizə çatdıraq:

**Qidrozofobiya** - soyuqlamaqdan, tərləməkdən və xoşagəlməz qoxu qorxusu. Bu fobiyadan əziyyət çəkən insanlar dovşanlara, quşlara və donuzlara paxıllıq edirlər. Bunun səbəbi həmin heyvanların tər vəzlərinin olmamasıdır.

müşahidə olunur.

**Dorofobiya** - hədiyyə qorxusu. Bu xəstəlikdən əziyyət çəkən insanlar hədiyyə almaqdan və hədiyyə verməkdən qorxurlar. Dorofobiya əsasını uşaqlıqda olan tənbehlər və komplekslər qoyur.

**Lakanofobiya** - tərəvəz qorxusu. Lakanofobiyadan əziyyət çəkən insanlar tərəvəz gördükdə təngnəfəs olurlar, ürəkbulanmayla müşahidə olan baş ağrısı keçirirlər. Belə insanlar tərəvəzlərin yanına qoyulmuş yeməkləri də yemirlər.

**Ombrofobiya** - yağış fobiyası. Bu qorxu çox ciddi hesab olunur. Çünki digər insanlara hücumla nəticələnə bilər. Yağış fobiyasının səbəbi uşaq vaxtı valideynlərin övladlarına yağış zamanı çölə çıxmağa icazə verməməsindən qaynaqlanır. Mütəxəssislər iddia edirlər ki, yağış zamanı çox insanlarda depressiya müşahidə olunur.

**Filofobiya** - sevgi qorxusu. Psixoloqlar hesab edirlər ki, filofoblar rədd olunmaq qorxusu ilə yaşayırlar. Filofobiya bir növ insanda inamsızlıq hissini gizlədir.

**Kumpunofobiya** - düymə qorxusu. İnanılmazdır, lakin insanlar arasında bu fobiyaya rast gəlinir. Dünya sakinlərinin 75 000 - i bundan əziyyət çəkir. Belə insanlara "Karolina Qarabasmalar Ölkəsində" cizgi filminə baxmaq məsləhət deyil.

**Akribofobiya** - oxuduğunu anlamamaq qorxusu. Belə qorxu tədricən şizofreniyaya çevrilə bilər. İnsanlarda növbəti hal baş verir: onlar oxuyan zaman cümlələri sözlərlə, sözləri isə hecalarla tələffüz edir.

**Qnosiofobiya** - bilik qavrama qorxusu. Adətən qnosiofobiya xəstələri böyük şəhərlərdə yaşayırlar (70%). Bu fobiya uzun müddət cəmiyyətdən kənar yaşayan "mauqli-insan"da

**Pentərafobiya** - qayınana qorxusu. Penterefoblar qayınanaları ilə ünsiyyətə girməyə çətinlik çəkirlər.

Yuxarıda da yazdığımız kimi, dünyada o qədər qorxu növləri var ki, hamısını bir yazıda cəmləşdirmək mümkün deyil. Amma fobiyaların siyahısına və onların ehtiva etdiyi mənalara baxanda görmək olur ki, əslində ətrafımızdakı bəzi insanların səbəbini bilmədiyimiz davranışları onların qorxuları ilə bağlıdır. Məsələn, yaşından asılı olmayaraq, bəzi insanlarda tənha qalmaq qorxusu var. Tamamilə özünə qapanma və cəmiyyətə zidd olan davranışla xarakterizə olunan autizm xəstəliyindən əziyyət çəkən insanlar da qəlblərinin dərinliklərində tamamilə tənha qalmaq qorxusunu hiss edə bilərlər. Bu qorxunun kökündə hər bir insanın xoşbəxt olmağa can atması durur.

Tənhalıqdan qorxanlarla yanaşı, ölümdən qorxanlar da var. Sosiofobiya (açıq, ümumi çıxış etmə qorxusu), aqorafobiya (açıq məkan qorxusu) da müasir həyatımızda insanların həyatını əhatə edib. Diqqət mərkəzində olmaq üçün anadangəlmə yaradıcılıq xasiyyətidir (natura). Amma müəyyən edilmiş xüsusiyyətlərin nəticəsinin qəbul edilməsində səhnə və ya açıq məkan qorxusu meydana çıxır. Digərləri üçün bu daha çox səriştəsiz, gülməli, axmaq kimi görsənmək qorxusudur.

Hörümçək, siçovul, tarakan (mətbəx böcəyi), ilan, təyyarə, bədheybət, iblis (şeytan), güzgü, kompüterin söndürülmüş monitoru, dikdaban qorxusunu da klassik qorxular siyahısına əlavə etmək olar.

Dəli olmaq (ağlı itirmək, havalanmaq) qorxusunu da ümumi siyahıya aid etmək olar. Bunu ancaq abstrakt təsəvvürlə (anlayışla) düşünən insanlar hiss edir. Adətən bu cür insanlar ruhani dünyanı, kainatı (aləmi) tanımağa, dini, fəlsəfəni, fizikanı öyrənməyə çalışan kəslərdir. Bu kəslər, ona bir az dəlisov da gəlsə, müdhiş ideyanı yaratmaq qabiliyyətindədir.

Təsəvvür etməzsiniz, amma insanların qorxaq olmaq qorxusu da var. Və bu, özünü daha çox gənc insanlarda göstərir ki, sonuncular bunu əsl kişi qorxusu hesab edirlər. Qadınların bir çoxu da bu hissi keçirir. Buna görə də bu qorxu kişilər kimi qadınlara da bəzi vaxtlarda hazır olmaq (vəziyyəti idarə etmək, düzgün qərar qəbul etmək), lazım olduğunda özünü zəifləməyə imkan verməmək barədə yardımçı olur.

Yaxşı, əgər insanda hansısa qorxu varsa, onun müalicəsi yoxdurmu? Fobiya müalicələrində, ümumiyyətlə, dərman və bunun yanında psixoterapiya tətbiq olunur. Dərman müalicəsi əksər hallarda qeyri-kafi olduqda sakitləşdiricilərə (antidepresanlara) müraciət edilir. Bundan başqa adamı qorxusuyla üzləşdirərək müalicənin həlli ilə nəticələnəcək əməliyyatlar tətbiq olunur. Fobiyaların üzərinə gedərək, bu fobiyaların aradan qaldırılması və adamın artıq özündə qorxu hissi yaradan obyekt və ya vəziyyətdən zamanla narahatlığının azalması gözlənilir.Fobiyalar, müalicə nəticəsində bir anda aradan qalxa biləcəyi kimi, bu yaxşılaşma daha uzun zaman da ala bilər.

Ölkəmizdə fobik insanların fobiyaları, ümumiyyətlə, bir xəstəlik və ya keçici bir psixologiya pozğunluğu olaraq görüldüyünə görə, açığı, müalicəsi ilə çox məşğul olmaq istənilmir və tibbi bir dəstək alınmır. Lakin bu vəziyyətin fobiyanı daha da artıra, zamanla daha pis hal ala biləcəyini valideynlər və yetkin şəxslər yaxşı bilinməlidir.

**Aqrofobiya** - küçə, meydan, bazar, teatr, kino, tünel və sair bu kimi yerlərdən qorxurlar. Çox vacib olduqda belə yerlərə ailə və dostları ilə gedirlər.

**2. Spesifik fobiya** - heyvanlardan (özü də təkcə yırtıcı yox, həm də ev heyvanlarından), yüksəklikdən, qapalı və açıq mühitlərdən, təyyarəyə və liftə minməkdən qorxurlar.

**3. Sosial fobiya** - daha çox ictimai yerlərdə yeməkdən, danışmaqdan və ya yazmaqdan, həmçinin ictimai nəqliyyatdan istifadə etməkdən, qonaq qəbul etməkdən, əl-ələ görüşməkdən qorxurlar.

Fobiyalar müxtəlif yaşlarda başlaya bilər. Geniş yayılmış əsəb pozuntularıdır: fobiyalardan əhalinin 15-18%-i əziyyət çəkir.

❑ Sevinc TELMANQIZI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 87 (7257) 24 aprel 2019

# İtin burnundan 10 santimetrlik taxta çıxıb

Xorvatiyada itin burnundan uzunluğu 10 santimetr olan taxta çıxarıblar. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Tor ləqəbli Belçika ovçarkası gəzinti zamanı yıxılıb. Sahibi buna o qədər də ciddi əhəmiyyət verməyib. Amma bir neçə gün sonra it davamlı olaraq asqırmağa başlayıb və burnundan qan gəlib. Veterinar iti müayinə edib və burnunun dərin qatında yad cisim olmasından şübhələnib. Taxtanı oradan çıxarmaq üçün xüsusi alətlər lazım gəlib. Böyük ehtimalla bu taxta Tor yıxılanda onun burnuna girib.



2017-ci ildə xəbər verilmişdi ki, Amerikanın Kaliforniya ştatı sakini pişiyinin burnundan kiçik ilan çıxarıb. Sürünən oradan çıxarılanda ölü olub.

# Bir almaya görə 500 dollar cərimə



Amerika sakinini məzuniyyətdən evinə qayıdarkən bir almaya görə cərimələyiblər. Bu haqda UPI nəşri xəbər verib. Kolorado ştatından olan Kristal Tedlok Delta kampaniyasının təyyarəsi ilə Parisdən Koloradoya uçurdu. Təyyarədə olanda onlara nahar üçün içi yeməklə dolu bir qutu veriblər. Kristal həmin qutudan almanı sonradan yemək üzrə götürüb. Amma gömrük məntəqəsindən keçərkən ona baqaj daşınması qaydalarını pozduğunu deyiblər. Buna onun çantasında alma olması ilə bağlı daha öncə məlumat verməməsi səbəb olub. "Gömrük işçisi məndən soruşdu ki, Fransa səfəri mənə baha başa gəldimi? Mən heç nə başa düşmədən cavab verdim ki, "hə". O da cavabında mənə dedi ki, səfər mənə daha da baha başa gələcək. Bundan sonra gömrük qaydalarını pozduğum üçün cərimələndim".

O, bir alma üçün 500 dollar cərimə ödəyib. Amerikalı qadın bildirib ki, aviakompaniya nümayəndələri onun ABŞ sərhədlərinə daxil olana qədər almanı yeməsi ilə bağlı xəbərdarlıq etməli idilər.

# 27 illik komadan ayıldı

Almaniyada bir pasient 27 illik komadan sonra ayılıb. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Munira Abdulla adlı qadın 1991-ci ildə idarə etdiyi avtomobil məktəb maşını ilə toqquşduğu üçün ciddi beyin zədəsi alıb. Maşında eyni zamanda onun oğlu Omar da olub. Anası qəza zamanı onun qabağında dayanaraq qoruyub. Oğlan yüngül zədələrlə qurtulub.

Muniranı yerli xəstəxanaya hospitalizasiya ediblər, ardınca isə Londona köçürüblər ki, diaqnoz qoya bilsinlər. Həkimlər bildiriblər ki, qadın minimal şüurda olub. Bu da ilk vaxtlar komaya bənzədilib. Daha sonra onu yerli xəstəxanaya qaytarıblar. Orada da onu uzun illər boru ilə qidalandırıblar və fizioterapiya keçiblər.

2017-ci ildə Abu Dabinin sonuncu şahzadəsi Məhəmməd ben Zaid Abdullanın ailəsinin durumu barədə xəbər tutub və onun Almaniyadakı müalicəsinin xərclərini ödəyib. Bir il sonra Munira müxtəlif səslər çıxarmağa başlayıb. Bundan bir neçə gün sonra isə oyanıb və ilk dəfə oğlunun adını çəkib.

Qadın Abu-Dabiyə ailəsi ilə birgə qayıdıb və bərpa olunmağa davam edir. Ona müalicə üçün fizioterapiya lazımdır.



# Arvadının şikayətlərindən bezib, robot plitə yaratdı

Çin sakini arvadının yemək hazırlaya bilmədiyi üçün etdiyi şikayətlərdən bezib, robot plitə hazırlayıb. Ölkədəki banket kampaniyalarından birinin baş direktoru He Qinq Şanxayda təşkil olunan yeni yarmarkalardan birində öz ixtirasını təqdim edib. Kişi etiraf edib ki, bu alətin hazırlanması üçün 7 il vaxt sərf edib. "Ağıllı robot plitə məni təkcə mətbəx öhdəliklərindən xilas etməyəcək. Eyni zamanda qadınları da yemək hazırlamaq üçün vaxt sərf etməyə qoymayacaq". Onun sözlərinə görə, yeni kəşf evdə özünə yer tapan kimi həyat yoldaşı ona şikayətlənməyi dayandırıb.

Sinanın dediyinə görə, robot plitə yeməyi üç-dörd dəqiqə ərzində bişirir. Bundan sonra robot öz-özünü yuyur. Yaxın vaxtlarda çinli onu on min yuana kirayəyə verməyi və hər bişirilən yeməyə görə isə 1 yuan almağı planlaşdırır. Çin sosial şəbəkə istifadəçiləri isə bu yeni kəşfi böyük entuziazmla qarşılayıblar. Onu təqdir edənlərlə yanaşı, robot plitənin kəsib-doğrama funksiyasının olmadığını deyənlər də olub. Onların fikrincə, bu, daha çox vaxt aparan bir məqamdır.

# Qoroskop




**QOÇ** - Ailə üzvlərinizlə davranışlarda nəzakətli olun. Məhz belə olduqda özünüzə qarşı rəğbət oyada bilərsiniz. "Yalnız mən haqlıyam" ifadəsini tərgidin. İş günü olsa da, istirahətə vaxt ayırın.

**BUĞA** - Atdığınız hər bir addımın məsuliyyətini hiss edin. Bu, çıxaracağınız qərarların icrasında sizə böyük dəstək ola bilər. Əks təqdirdə, gün ərzində müvəffəqiyyətə yetişə bilməyəcəksiniz.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Ola bilsin ki, yeni təkliflər də alasınız. Axşam təmiz havada gəzinməyiniz sağlamlığınıza xeyir gətirə bilər. Büdcənizdə artım mümkündür.

**XƏRÇƏNG** - Sevgi dolu bir gün yaşayacaqsınız. Yaxın adamların sizi başa düşməsi, o cümlədən səhvlərinizi bağışlaması ürəyinizcə olacaq. Nəzərdə tutmusunuzsa, nahardan sonra səfərə çıxın.

**ŞİR** - Nədənsə bu ərəfələr sizin üçün o qədər də ürəkaçan keçmir. Bu səbəbdən də riskli və qeyri-adi hərəkətlərə yol verməməlisiniz. Qonaq getmək, gəzintiyə çıxmaq çox səmərəlidir.

**QIZ** - İşlə özünüzü çox yormayın. Ulduzlar daha çox istirahətə yer ayırmağınızı tövsiyə edir. Saat 16-dan sonra yaxınlarınızla aranızda yaranmış anlaşılmazlıqlara aydınlıq gətirməyə çalışın.

**TƏRƏZİ** - Nahara qədər ümumi vəziyyətiniz qənaətbəxş olacaq. Nəzərdə tutduğunuz işlərin bir çoxunu gerçəkləşdirəcəksiniz. Sonrakı vaxtınızı isə daha çox sizi anlayan insanlarla keçirin.

**ƏQRƏB** - Sevgi amilinə daha böyük diqqət yetirin. Çünki iş gəldi-gedər olsa da, bu hisslər ilahidən gəldiyi üçün əbədidir. Gün ərzində sizə yaxın olanlarla mübahisələrdən yayının.

**OXATAN** - Hələ ki mövcud durumunuz Göy qübbəsini qane edir. Əsası odur ki, hər hansı xoşagəlməzlik baş verməyəcək. Bu gün şəxsi işlərinizdə əsaslı dönüş etmək üçün aktivləşməlisiniz.

**OĞLAQ** - Hər mənada uğurlu gün yaşayacaqsınız. Ulduzlar bəxtinizin gətirəcəyini bəyan edir. Təzə xəbərlər də eşidəcəksiniz. Amma həmkarlarınızla təmkinli davranın ki, işdə passivlik yaranmasın.

**SUTÖKƏN** - Bir qədər mübahisəli ərəfədir. Daimi ünsiyyətdə olduğunuz adamlarla, ələlxüsus da həmkarlarınızla xoşagəlməz situasiyalara cəlb oluna bilərsiniz. Bələd olmadığınız ünvanlara getməyin.

**BALIQLAR** - Astroloji göstəricilərə görə bu gün əməkdaşlıq zəminində uğurlarınız böyük olacaq. Aldığınız təkliflərin perspektivlərinə inanırsınızsa, imtina etməyin. Varlanmaq şansınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 77 kilo ağırlığında balıq tutdu




Amerikanın Oklaxoma ştatında balıqçı nəhəng balıq tutub. Bu barədə "The Oklahoma Game Wardens" təşkilatının facebook səhifəsində xəbər verilib. Zaxari Satterfild iki metr uzunluğunda və 77 kilo ağırlığında Teksom gölündə balıq tutub. Dostları ona bu ağır balığı sudan çıxarmağa yardım ediblər. Onların xahişinə əsasən, Satterfild ora bioloqun gəlməsini gözləyib.

Tutulan bu balıq göl balıqlarının ən nəhəngidir. O, 33.9 milyon il bundan əvvəl aşkarlanıb. Həmin dövrdə bir çox balıq növləri də aşkarlanıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190